Günəş Şərqdən doğur!

❒ № 8 (5289), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 15 yanvar 2021-ci il (cümə)



## Yoluxma sayı 380 nəfərə düşdü

Koronadan son sutkada 1159 nəfər sağalıb, 14 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 380 yeni yoluxma faktı qeydə alınıb, 1159 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

## Azərbaycanın 20 faiz ərazisi yenidən qurulacaq

Qarabağa yatırılacaq investisiyalar qeyri-neft sektorunun inkişafını sürətləndirəcək



**İşğaldan azad edilən ərazilərimizin iqtisadi potensialı prioritet məsələlərdən biridir.** Azərbaycanlı iş adamı, iqtisadçı Rauf Rüstəmov bildirib ki, Dağlıq Qarabağ "Bir millət, iki dövlət" şüarı ilə modernləşdiriləcək.

(Səh.6)

Günün içindən...



## Məbləği açıqlandı

Vətən müharibəsində 91 milyon manat ziyan dəyib

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın məbləği məlum olub.

(Səh.6)

## DİM sədri: "Buraxılış və qəbul imtahanlarının tarixlərini yanvarın 18-dən sonra demək mümkündür"



"Yanvarın 18-nə qədər imtahan tarixləri haqqında fikir söyləyə bilmərəm, bizim işçilərin də 30 faizi iş yerindədir. Digərləri onlayn rejimində çalışırlar. Bu halda heç bir təşkilat kütləvi imtahan keçirə bilməz, 3 saatlıq icazə var evdən çıxmaq üçün".

(Səh.2)

# Azərbaycan XİN-dən Ermənistana son xəbərdarlıq



## "Erməni nazir bir daha Azərbaycan ərazilərinə səfər etsə baha başa gələcək"

**"Bir daha vurğulayırıq ki, Ermənistanın dövlət rəsmilərinin Azərbaycanın ərazilərinə qanunsuz səfərləri qəbuledilməzdir".**

Bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində bildirilib.

(səh.3)

## KİVDF-nin sabiq rəhbəri həbs edilib

Vüqar Səfərli külli miqdarda pul vəsaitini mənimsəməkdə ittiham olunur

(səh.2)



## Həmsədrlərin prosesə qoşulmasına imkan verməK olmaz

"Rusiya təkbaşına Bakını güzəştə getməyə məcbur edə bilmədiyi üçün prosesə Vaşinqtonu və Brüsseli qoşmaq istəyir"

(səh.3)

## İtirən Ermənistandır

Türk mallarına qadağanın Ankaraya isti-soyuğu yoxdur

(səh.7)

## "Yaxın 3 ayda devalvasiya olmayacaq"

Əkrəm Həsənov: "Milli valyutaya təzyiq güclü deyil, niyə devalvasiya olsun ki?!"

(səh.8)

## Şəhərdə parklanma yerləri artırılmalıdır

Xüsusilə metrostansiyaların qarşısında qayda-qanun yaradılmalıdır

(səh.12)



## Yoldaşını tankdan çıxarmaq istəyəndə snayper ürəyindən vurub

Şəhid Arif Qeybiyevin döyüş yolunu həyat yoldaşı "Şərq"ə danışır

(səh.8)

## "İnanın, quş olub uçmaq istəyirdim"

**Araz Elsəs: "Ürəyimdən keçirdi ki, kaş mən də ordumuzun sırasında olardım"**



(səh.9)



# KİVDF-nin sabiq rəhbəri həbs edilib

## Vüqar Səfərli külli miqdarda pul vəsaitini mənimsəməkdə ittiham olunur

**Ölkəmizdə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq demokratik cəmiyyətin əsas atributlarından olan kütləvi informasiya vasitələrinin inkişafı da daim diqqət mərkəzində saxlanılır.**

**Baş Prokurorluğun mətbuat xidmətindən yayılan məlumata görə, bununla yanaşı, bu mühüm sahə üzrə dövlətin dəstək siyasətinə öz qanunsuz əməlləri ilə kölgə salan vəzifəli şəxslərin aşkar olunaraq məsuliyyətə cəlb olunması istiqamətində prokurorluq orqanlarının məqsədyönlü və ardıcıl tədbirləri davam etdirilir.**

Belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna (KİVDF) dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi zamanı aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar Hesablama Palatasından daxil olmuş materiallar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaqla Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun sərəncamında olan əmlakın həmin qurumun İcraçı direktoru və əməkdaşlarının digər şəxslərlə əlbir olmaqla şəxsi maraqlarına uyğun istifadə etmələrinə, fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə proqramların və vəzifələrin icra edilməsi adı ilə rəsmi sənədlərə yalan məlumatlar daxil edilərək xüsusilə külli miqdarda ziyan vurulmaqla mənimsəmələrinə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və digər qanunsuz əməllər törətmələrinə əsaslı şübhələr müəyyən edilib.

Belə ki, aparılmış istintaqla müəyyən edilib ki, Fondun icraçı direktoru Səfərli Vüqar Müzəffər oğlu, "Portos" MMC-nin direktoru Məmmədov Nadir Məhərrəm oğlu və qeyriləri ilə qabaqcadan əlbir olaraq mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və yaşayış evlərinin tikintisi ilə bağlı 2013-2019-cu illər ərzində dövlət tərəfindən KİVDF-yə ayrılmış vəsaiti layihə və smeta sənədlərində iş həcmini əsassız şişirdib, işlərin və materialların dəyərini müəyyən edilmiş qiymətlərdən artıq göstərilməklə "Portos" MMC-nin bank hesablarına köçürüb, bununla da, mətbuat işçiləri üçün Bakı şəhəri, Səbail rayonu, 20-ci sahə, Bibiheybət qəsəbəsi ərazisində yaşayış binalarının tikintisi üzrə ayrılmış xüsusilə külli miqdarda pul vəsaitini mənimsəyib, qeyd edilən cinayət əməllərinin aşkar olunmasının qarşısını almaq məqsədilə əlbir olduğu şəxslərlə birlikdə yerinə yetirilmiş işlərin qəbulu haqqında "Forma 2" aktlarında ayrılmış vəsaitlərin tam həcmdə binanın tikintisinə sərf edilməsinə dair yalan məlumatlar daxil edib şəxsən təsdiq etməklə vəzifə saxtakarlığı da törədib.

Bundan başqa, Vüqar Səfərli digər şəxslərlə qabaqcadan əlbir olaraq qurumun fəaliyyətinin təşkili üçün inzibati bina üzrə münasib yerin ayrılması və ya qeyri-yaşayış sahəsinin aşağı qiymətlərlə icarəyə verilməsi üçün Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilən qanuni prosedurlara qəsdən əməl etmədən, həmin Fondun maliyyələşməsinin həyata keçirildiyi dövlət büdcəsindən ayrılmış vəsait üzrə icarə xərclərinin özünün əvvəllər sədri olduğu, sonradan isə özünə yaxın şəxslərin fəaliyyətlərinə faktiki nəzarəti həyata keçirməkdə davam etdiyi şirkətlərə, habelə yaxın münasibətdə olduğu digər şəxslərə gəlir qismində verilməsinə nail olmaqdan ötrü həmin şəxslərin xüsusi mülkiyyətində olan Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23L ünvanında yerləşən müəssisə binasının 3-cü mərtəbəsinin Fondun inzibati istifadəsinə verilməsi məqsədilə maddi baxımdan Fond üçün daha ağır şərtlərlə icarəyə götürülməsinə dair müqavilələr bağlayıb, 2011-2019-cu illər ərzində cəmi 812 min manat məbləğində pul vəsaitini icarə haqqı adı ilə köçürməklə dövlət büdcəsinə külli miqdarda ziyan vurub.

Həmçinin, Vüqar Səfərli digər şəxslərlə qabaqcadan əlbir olaraq nəşr olunan qəzetlərə maliyyə yardımının göstərilməsi məqsədi ilə dövlət tərəfindən ayrılmış vəsaitin 2015-2019-cu illər ərzində 300 min manat məbləğində olan hissəsini ailə üzvünün adına təsis etdiyi "Futbol+Qol" qəzetinə qanunsuz olaraq köçürməklə həmin pulu, eləcə də qurumun məqsədlərinin həyata keçirilməsi üçün alınmış 103 min manat dəyərində dəftərxana ləvazimatlarını da mənimsəyib, eyni zamanda 2017-2019-cu illər ərzində ziyafətlərin keçirilməsi ilə bağlı satınalma müqavilələrinin bağlanması zamanı qanunsuzluqlara yol verməklə KİVDF-yə məxsus olmaqla ona etibar edilmiş cəmi 105 min manat məbləğində pul vəsaitini israf edib.

Bundan əlavə, Vüqar Səfərli qeyriləri ilə qabaqcadan əlbir olaraq qeyd edilən mənimsəmə və vəzifə saxtakarlığı cinayətləri üzrə əldə etdiyi xüsusilə külli miqdarda pul vəsaitini kommersiya bankında olan milli və xarici valyutadakı depozit hesablarına 2015-2018-ci illər ərzində cəmi 5 milyon 796 min manatı yerləşdirməklə cinayət yolu ilə əldə edilmiş həmin pul vəsaitlərini külli miqdarda leqallaşdırıb.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Səfərli Vüqar Müzəffər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini leqallaşdırma), 308.2 (ağır nəticələrə səbəb olan mühüm zərər vurulmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 308-2.4 (satınalma prosedurları keçirilmədən külli miqdarda ziyan vurmaqla dövlət vəsaitlərini xərcləmə) və 313 (vəzifə saxtakarlığı), Məmmədov Nadir Məhərrəm oğlu isə Cinayət Məcəlləsinin 179.4, 308.2 və 313-cü maddələrinə əsasən təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd edilən korrupsiya şəbəkəsində iştirak etmiş digər şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilmələri və dövlətə vurulan ziyanın bərpa olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.



# "Təklif etdik ki, Şuşa İslam dünyasının paytaxtı olsun"

## Bunu ICESCO-nun Baş direktoru deyib

**"Biz təklif etdik ki, Şuşa İslam dünyasının paytaxtı olsun. Əminəm ki, bu, gələcəkdə mümkün olacaq. Biz Şuşanı 2022-ci ildə paytaxt elan etmək istəyirik".**

Trend bildirir ki, bunu ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bu gün keçirilən brifinqdə deyib.

"Biz Azərbaycanın uğur tarixini digər ölkələrdə də təbliğ etməyə nail olacağıq" - deyə, o bildirib.

# DİM sədri: "Buraxılış və qəbul imtahanlarının tarixlərini yanvarın 18-dən sonra demək mümkündür"



**"Yanvarın 18-nə qədər imtahan tarixləri haqqında fikir söyləyə bilmərəm, bizim işçilərin də 30 faizi iş yerindədir. Digərləri onlayn rejimində çalışırlar. Bu halda heç bir təşkilat kütləvi imtahan keçirə bilməz, 3 saatlıq icazə var evdən çıxmaq üçün".**

APA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə imtahanlarda fərqlənmiş nəzarətçi müəllimlər və imtahan rəhbərləri ilə onlayn görüşündə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, yalnız yanvarın 18-dən sonra təxmini tarixləri demək mümkündür: "Daha əvvəl isə imtahan ardıcıllığını elan edəcəyik. Sonra isə tarixlər müəyyənləşəcək, bu, bizdən asılı deyil, tarix pandemiya şərtlərindən asılıdır ki, yoluxma səviyyəsi necə olacaq, kütləvi imtahan keçirmək mümkün olar, ya yox. Amma hər bir təklifimizi hazırlayıb hökumətə təqdim edirik ki, bizə icazə verilsin. Bir dəyişiklik o olacaq ki, bu il də IX siniflər yalnız bir mərhələdə imtahan verəcək. İmtahan strukturu elan olunub, xüsusi jurnal da çap edilib".

# Amerika cəmiyyətində müəyyən parçalanma var

## Asim Mollazadə: "Parçalanmanın ən böyük təhlükəsi isə bu ölkədə birpartiyalı sistemin formalaşma ehtimalıdır"

ABŞ Konqresinin Nümayəndələr Palatasında Prezident Donald Trampın impiçmenti məsələsinə baxılır. O, üsyana təhrikdə və digər ağır cinayətlərdə günahlandırılır. Sənəddə Trampın impiçmenti və onun gələcəkdə seçki yolu ilə istənilən vəzifəni tutmağa qadağa nəzərdə tutulur.

Nümayəndələr Palatası da Trampın impiçmentinə səs verib. Yanvarın 6-da Konqres binasına hücumlardan sonra sosial media şirkətləri onun hesablarını bloklamağa başlayıb. "Snapchat" sosial media platforması keçən həftə Trampın dondurulmuş hesabı ilə bağlı son qərarını verib. "Twitter" şirkətinin rəhbəri Cek Dorsi Trampın hesabının bloklanmasına münasibət bildirib. Onun sözlərinə görə, qərar təhlükəli presedent təşkil etsə də, düzgündür.

**Baş verənləri "Şərq"ə şərh edən millət vəkili Asim Mollazadənin fikrincə, Amerikada yaranan gərginliyin səbəbləri seçki prosesində yeni üsuldan istifadə ilə bağlıdır:** "Poçt vasitəsilə səsvermə və sonra səslərin hesablanmasında yeni qayda tətbiq edildi. Bunun üçün Tramp və onun tərəfdarları ciddi ittihamlar irəli sürdülər. Düzdür, məhkəmələr bu ittihamları qəbul etmədi, amma şübhələr qaldı və gərginliyə səbəb oldu. Əvvəlcə Tramp və tərəfdarlarının seçicilərə fikirlərini ifadə etmək üçün məhz elektron media vasitələrindən istifadə olunurdu. Kapitolidəki hadisələrdən sonra isə fövqəladə vəziyyət yarandı. Beləliklə, ABŞ prezidenti bu vasitələrdən məhrum edildi".

**Parlamentari qeyd edib ki, böyük şirkətlərin siyasi proseslərə müdaxiləsi təhlükəli haldır:** "Həmin şirkətlər söz azadlığını



məhdudlaşdırmaqla məşğuldurlar. Təbii ki, bu hal Amerikanın imicinə böyük zərər gətirib. Fikrimcə, baş verənlər ciddi araşdırılacaq.

Trampa qarşı impiçment müzakirələrinin əsas səbəbi də onun gələcəkdə siyasi fəaliyyətinin qarşısını almaqdır. Narahatlıq var ki, Tramp və onun tərəfdarları gələcəkdə siyasi fəaliyyətlərini yeni formada davam etdirə bilərlər. Bu hadisə onu göstərir ki, Amerika cəmiyyətində müəyyən parçalanma var.

Parçalanmanın ən böyük təhlükəsi isə bu ölkədə birpartiyalı sistemin formalaşma ehtimalıdır. Çünki həm Konqresin təmsilçilər palatasında, həm də Senatda bir partiya üstünlük qazanıb.

Onlar da administrasiya ilə həmfikir olduqları üçün söz azadlığını məhdudlaşdırırlar. Eyni zamanda şirkətlər vasitəsilə siyasətə müdaxilə etdirlər.

Baş verənlər Amerikaya dost olan ölkələrdə ciddi narahatlıq doğurur. Ən azından şirkətlərin fəaliyyəti araşdırılmalı və onların siyasətə müdaxilə etmə imkanları məhdudlaşdırılmalıdır".

**Yeganə Bayramova**

# Həmsədrlərin prosesə qoşulmasına imkan vermək olmaz




## "Rusiya təkbaşına Bakını güzəştə getməyə məcbur edə bilmədiyi üçün prosesə Vaşinqtonu və Brüsseli qoşmaq istəyir"

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağla bağlı proseslərdə yenə də rol oynaya biləcəyini söyləyib. Nazir vurğulayıb ki, birgə Bəyanat Minsk prosesi çərçivəsində illər ərzində hazırlanan fikir və prinsipləri böyük ölçüdə ehtiva edir. XİN rəhbərinin sözlərinə görə, Minsk qrupunun fəaliyyətinə imkan yaratmaq olar, ancaq həmsədrlər konstruktiv olmalı və keçmişdə baş verənlərdən dərs almalıdırlar.**

Çavuşoğlu Cənubi Qafqazda davamlı sülhü təmin etmək üçün fürsət yarandığını deyib. Xatırladıb ki, Ermənistanın hücumlarına baxmayaraq, Azərbaycan sürətli və qətiyyətli şəkildə özünü müdafiə etdi. İşğal altındakı torpaqlarının əhəmiyyətli bir hissəsini nəzarət altına aldı və müharibə 44 gün sonra Azərbaycanın qələbəsi ilə başa çatdı. XİN rəhbəri bölgədəki sabitliyin erməni xalqı və Ermənistan üçün də faydalı olacağını qeyd edib: "Bu səbəblə Azərbaycanın 6 ölkənin iştirakı ilə regional format təşəbbüsünü dəstəkləyirik. Bu, barış və rifah üçün regional mülkiyyəti artıracaq". Türkiyə xarici işlər naziri atəşkəsin olduqca önəmli olduğunu bildirib: "Bundan sonra erməni tərəfinin bu razılaşmalara əməl etməsini gözləyirik. Yerevan macəralardan qaçmalı və uzunmüddətli siyasi nizamlanmanın təmin olunmasına çalışmalıdır". Çavuşoğlu əlavə edib ki, üçtərəfli bəyanat yerinə yetirilərsə və Azərbaycan-Ermənistan dialoqu baş tutarsa, bu, şübhəsiz ki, Ankara və Yerevanın münasibətlərinə də müsbət təsir edəcək: "Regionda sabitlik erməni xalqı və Ermənistanın maraqlarına cavab verir. Biz regionu bütün ölkələrin vahid əməkdaşlıq zonası kimi görürük. Ona görə də Azərbaycanın regionda 6 tərəfli əməkdaşlıq platformasını dəstəkləyirik. Bu, sülhə və regionun bütün sakinlərinin rifahına müsbət təsir edəcək".

**"Birmənalı dərk etmək lazımdır ki, Laçın dəhlizi nəzarətimizdə olmayanadək bu cür təxribatların şahidi olacağıq"**

**Türkiyə XİN rəhbərinin bəyanatını "Şərq"ə dəyərləndirən politoloq Əhəd Məmmədli deyib ki, Moskvadakı üçtərəfli görüşdə Prezident İlham Əliyev münaqişənin keçmişdə qaldığını bəyan etdi.** Analitik vurğulayıb ki, ölkə rəhbəri Bakıda ATƏT-in Minsk qrupunun həmsədrlərini soyuq qarşıladı və onları tənqid etdi: "Əgər "Dağlıq Qarabağ münaqişəsi" bitibsə, o halda Minsk qrupunun burada görəcəyi bir iş qalmayıb. Həmsədrlərin fəaliyyəti rəsmi Bakının və Ankaranın maraqlarına cavab vermir. Düzdür, Paşinyan Moskva görüşündə Minsk qrupu məsələsini qaldırdı. Məncə, bu da Yerevanla Kreml arasında razılaşdırılmışdı. Rusiya təkbaşına Bakını güzəştə getməyə məcbur edə bilmədiyi üçün prosesə Vaşinqtonu və Brüsseli qoşmaq istəyir. Ona görə də həmsədrlərin, başqa kənar qüvvələrin hadisələrə müdaxiləsinə imkan verməməliyik. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ötən gün anons verdi ki, Cənubi Qafqazda məsələlər elə həll olunmalıdır ki, bölgədə hansısa sülhməramlıya, vasitəçilərə ehtiyac qalmasın. Bölgədəki problemlər Türkiyənin iştirakı ilə region ölkələri çərçivəsində həll edilməlidir".

**Ə.Məmmədli bildirib ki, Ermənistanın siyasi rəhbərliyi normal qonşuluq münasibətlərində maraqlı görünmür:** "Ölkənin Xarici işlər naziri Ara Ayvazyanın Qarabağa qanunsuz gəlişindən sonra Ermənistanın hərbi prokuroru və baş prokurorun müavini də Qarabağa gələrək sülhməramlıların rəhbəri, həm də separatçılarla görüşüb, onlara hədiyyə verib, təltif edib. Bu cür səfərlər Azərbaycan ictimaiyyətini ciddi narahat edir və ermənilərin razılaşmanın bütün şərtlərinə əməl edəcəyinə şübhə yaradır. Birmənalı dərk etmək lazımdır ki, Laçın dəhlizi nəzarətimizdə olmayanadək bu cür təxribatların şahidi olacağıq. Bu cür addımların atılması və onlara göz yumulması regionda sülh və sabitliyə xidmət etmir".

**İsmayıl Qocayev**

## Azərbaycan XİN-dən Ermənistana son xəbərdarlıq

### "Erməni nazir bir daha Azərbaycan ərazilərinə səfər etsə baha başa gələcək"



**"Bir daha vurğulayırıq ki, Ermənistanın dövlət rəsmilərinin Azərbaycanın ərazilərinə qanunsuz səfərləri qəbuledilməzdir".**

Bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində bildirilib.

Qeyd edilib ki, rəsmi Bakının icazəsi olmadan Ermənistan xarici işlər naziri bir daha Azərbaycan ərazilərinə səfər edəcəyi təqdirdə, bu Ermənistan tərəfinə baha başa gələ bilər: "Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu ilə bağlı Ermənistan xarici işlər nazirinin əsassız iddiasına gəldikdə isə Prezident İlham Əliyevin status məsələsini tarixin zibilliyinə göndərdiyini Ermənistan rəsmilərinə xatırlatmaq istərdik".

## İclasın gündəliyində iki məsələ var

### Parlamentdə ilk komitə iclasının vaxtı məlum olub

**Yaz sessiyası çərçivəsində Milli Məclisdə ilk komitə iclasının vaxtı məlum olub.**

APA-nın məlumatına görə, parlamentin Elm və təhsil komitəsinin yanvarın 18-də saat 11.00-da ilk onlayn iclası keçiriləcək.

İclasın gündəliyinə Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci ilin payız sessiyası dövründə Elm və təhsil komitəsində görülən işlər barədə hesabat və Milli Məclisin Elm və təhsil komitəsinin 2021-ci ilin yaz sessiyası üçün iş planının müzakirəsi daxildir.

Qeyd edək ki, Milli Məclisin deputatları sabah tətildən qayıdır. Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, deputatlar yanvar ayının 1-dən 15-dək tətilə buraxılır.

Tətil dövründə parlamentin deputatları məzuniyyətdə sayılırlar. Milli Məclisin yaz sessiyası fevralın 1-də başlayacaq və mayın 31-dək davam edəcək.

# Qarabağ münaqişəsi keçmişdə qaldı

## Cənubi Qafqazda yeni geostrateji reallıqlar yaranıb

Dağlıq Qarabağda silahlı münaqişənin eskalasiyası, çoxlu sayda insan itkisi münaqişələr həll olunmamış qaldıqda yaranan riskləri açıq-aşkar göstərdi. Bunu İsveçin xarici işlər naziri, ATƏT-in hazırkı sədri Ann Linde, İsveçin 2021-ci ildə ATƏT-ə sədrlik proqramını təqdim edərkən deyib. O bildirib ki, İsveçin ATƏT-ə sədrliyi müddətində münaqişələrin tənzimlənməsi əsas prioritetlərdən olacaq:

"ATƏT üzv ölkələrinin ümumi problemlərinin ən yaxşı həlli üsulu çoxtərəfli əməkdaşlıqdır. Builki sədrliyimiz müddətində məhz bu yanaşmanı rəhbər tutacağıq. Əsas prioritet regionumuzdakı münaqişələrin həllində kömək göstərməkdir. Beynəlxalq sülhə və təhlükəsizliyə təhdidlər, münaqişələrin yol açdığı ağrı-acılar qəbuledilməzdir".

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən politoloq Nurlan Qələndərli qeyd edib ki, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsi nəticəsində meydana çıxmış Dağlıq Qarabağ münaqişəsi uzun illər ərzində regional təhlükəsizliyə, sabitliyə ciddi təhdid amili kimi çıxış edib.** Politoloq əlavə edib ki, işğalçı ölkənin təcavüzkar mövqeyini davam etdirməsi, status-kvonun qorunub saxlanılmasına xidmət edən təxribatçı hərəkətləri, eləcə də separatizmə dəstək və rəvac verməsi nəticəsində 1 milyondan çox azərbaycanlının bütün fundamental hüquqları pozulub, tarixi-mədəni irsimiz soyqırımına məruz qalıb: "Bu həm də humanitar problemlərə yol açıb. Bir sözlə, regionda bütün gərginliyin, eskalasiyanın səbəbi Ermənistanın işğalçı siyasəti olub. Azərbaycan dövləti daim Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yeni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyini diqqətə çatdırıb. Amma işğalçı dövlət qeyri-konstruktiv mövqeyindən əl çəkməyib, nəticədə gərginliyin eskalasiyası, itkilərin baş verməsi kimi neqativ hallar müşahidə olunub. Ermənistanın təxribat cəhdlərinə adekvat olaraq Azərbaycanın əks-hücum əməliyyatı həyata keçirərək torpaqlarını işğaldan azad etməsi, öz ərazi bütövlüyünü təmin etməsi regional təhlükəsizlik kontekstində də yeni mərhələnin başlanmasını şərtləndirib. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur, keçmişdə qalıb. Azərbaycan bu münaqişəni öz hərbi-siyasi qüdrəti vasitəsilə həll edib, milli güc resurslarından istifadə etməklə işğal və separatizm faktına son qoyub".

**"Autsayderə çevrilmiş Ermənistan da rasional hərəkət edərək bu imkanlardan yararlansa, siyasi və iqtisadi dividendlər əldə edə bilər"**



**Nurlan Qələndərlinin sözlərinə görə, Azərbaycanın formalaşdırdığı yeni geostrateji reallıqlar Cənubi Qafqaz üçün yeni əməkdaşlıq və təhlükəsizlik perspektivi yaradıb:** "Regiondan autsayderə çevrilmiş Ermənistan da rasional hərəkət edərək bu imkanlardan yararlansa, siyasi və iqtisadi dividendlər əldə edə bilər. Yox, əgər bu ölkənin siyasi dairələri yenə də revanşist yanaşma ilə köhnə - ənənəvi siyasi stereotiplərini davam etdirəcəksə, daha böyük facie və fəlakətlərlə üzləşəcəklər. Xüsusilə də, hər hansı bir təxribat cəhdi onlar üçün "bumeranq effekti" verəcəkdir. Bu hərəkətlər, eyni zamanda, regional təhlükəsizlik, bölgədə genişmiqyaslı və çoxformatlı əməkdaşlıq baxımından da arzuolunmazdır ".

**Aynurə Pənahqızı**

# "Can Azərbaycanı cani könüldən təbrik edirik"

**Azərbaycan və Türkiyə vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:**



## Türkiyədən Prezidentə yazırlar: "Aranızda ola bilmədik, ancaq bütün baş verənləri həyat yoldaşımla birlikdə televiziya kanallarından göz yaşları ilə seyr etdik"

**Türkiyə Respublikası, Antalya şəhərindən İsmail İnal yazır:** Hörmətli cənab Prezident İlham Əliyev, 44 gün davam edən müharibənin sonunda haqlı olaraq qazandığınız zəfər münasibətilə başda Siz olmaqla can Azərbaycanı cani könüldən təbrik edirəm. Qələbəniz mübarək! Sizin və hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın dilə gətirdiyiniz "İki dövlət, tək millət" şüarı adi sözlər deyil, qəlbimizin dərinliklərindən gələn bir ifadədir. Yaşasın Azərbaycan-Türkiyə dostluğu! İşğal edilən torpaqların geri alınmasında şücaət göstərən əsgərlərə sevgi və salamlarımı göndərir, hər birinin gözlərindən öpürəm. Cənab Prezident, xalqlarımız arasında olan könül bağını ifadə etmək, içimdəki səmimi duyğularımı kağıza köçürmək üçün sözlər acizdir. Azərbaycanı ziyarət edib, oradakı qardaşlarımla üz-üzə görüşüb onlarla qucaqlaşa bilmək ən böyük arzumdur. 75 yaşındayam, gəzməkdə çətinlik çəkirəm, lakin buna baxmayaraq, Ağdam, Laçın, Cəbrayıl, Gəncə, Şuşa, Füzuli, Cəbrayıl, Bakıda keçirilən zəfər şənliklərində Azərbaycan xalqı ilə birlikdə bir əlimdə Türkiyə, digər əlimdə Azərbaycan Bayrağı ilə iştirak etmək ən böyük arzum idi. Aranızda ola bilmədik, ancaq bütün baş verənləri həyat yoldaşımla birlikdə televiziya kanallarından göz yaşları ilə seyr etdik. Sizin televiziya kanallarında gözlərinizin içi gülərək, yumruğunuzu möhkəm sıxaraq dediyiniz "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", "Nə oldu Paşinyan?", "Cəhənnəmə getdi" ifadələriniz indi də qulağımızdadır. O sözləri tez-tez xatırlayırıq. Evimin bir hissəsində qürur duyduğum Mustafa Kamal Atatürkün rəsmi dəyərli Prezidentim Rəcəb Tayyib Ərdoğanla və Türk Bayrağı ilə birlikdə yer alır. Buraya ölkənizdən göndəriləcək Azərbaycan Bayrağını və Sizin imzalı rəsminizi də yerləşdirmək istəyirəm.

**Türkiyə, Afyonkarahisar şəhərindən Mustafa Düyünçü:** Hörmətli cənab İlham Əliyev, Qarabağ zəfərinizi təbrik edirəm. Sizə dərin məhəbbətimi və hörmətlərimi çatdırıram. Bu Qələbənin məhz Sizin rəhbərliyiniz altında qazanılması çox qürurvericidir. Bütün Azərbaycan xalqına şəxsən öz adımdan və türk xalqı adından salamlarımı yetirirəm.

**Füzuli rayonu, Hüseynbəyli kəndindən Könül Səfərova:** Müzəffər Ali Baş Komandan, 44 günlük Vətən müharibəsi Sizin müdrik və uzaqgörən siyasətiniz, qətiyyətli mövqeyiniz, möhkəm iradəniz sayəsində qalibiyyətlə başa çatdı. Siz xalqımızın 30 illik torpaq həsrətinə son qoydunuz. Siz düşməni təkcə hərb meydanında deyil, siyasi arenada da məğlub etdiniz. Bu gün Azərbaycan xalqı, eləcə də bütün füzulililər Sizinlə qürur duyur, fəxr edir. Sizin Füzuli rayonu ərazisində beynəlxalq hava limanının tikilməsi ilə bağlı qərarınızı alqışlayırıq və bu bizi çox sevindirir. İnanırıq ki, yağı düşmən tərəfindən dağıdılmış, viran edilmiş doğma Füzulimiz bundan sonra Sizin rəhbərliyinizlə yenidən böyük abadlıq və quruculuq işləri aparılmaqla, Qarabağımızın ən gözəl guşələrindən birinə çevriləcək.

**Xocavənd rayonundan Alışov Baris:** Müzəffər Ali Baş Komandan! Sizə torpaqlarımızı azad etdiyinizə, qaçqın və məcburi köçkünləri öz doğma yurd-yuvalarına qayıtmasında qazandığımız uğura görə, Qələbəmizə görə təşəkkür edirik. Xocavənd rayon Muğanlı kənd sakini Hüseynov İbad Mövsüm oğluna birinci Qarabağ döyüşlərində göstərdiyi igidliyə görə "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi qəsəbə sakinlərinin sevincinə səbəb olmuşdur. Buna görə Sizə Beyləqan rayon ərazisində salınmış 500 ailəlik Xocavənd rayon sakinləri adından öz minnətdarlığımızı bildiririk.

**Füzuli rayonu, Hüseynbəyli kəndindən Gündüz Teymurov:** Müzəffər Ali Baş Komandan, Siz 44 günlük müharibə ilə təkcə doğma torpaqlarımızı azad etmədiniz, həm də Azərbaycan xalqının tapdanmış qürurunu, mənəviyyatını özünə qaytardınız. Bu gün Azərbaycan xalqı, eləcə də bütün füzulililər Sizinlə qürur duyur, fəxr edir. Sizin qərarınızla bizim rayonda beynəlxalq hava limanının tikilməsi bizləri çox sevindirir, daha da qürurlandırır. İnanırıq ki, xain düşmən tərəfindən viran edilmiş Füzulimiz bundan sonra Sizin rəhbərliyinizlə daha gözəl, daha abad və firavan bir şəhərə çevriləcəkdir.

**Aynurə Pənahqızı**

---

# Ərdoğanın Qarabağ mesajları çox önəmlidir

## Türkiyə Prezidenti bəyan etdi ki, rus sülhməramlıları orada müvəqqətidir

Rusiya Prezidenti Vladimir Putin Türkiyə lideri Rəcəb Tayyib Ərdoğana zəng edərək Moskvada keçirilmiş üçtərəfli görüş barədə türkiyəli həmkarını məlumatlandırıb. Türkiyə prezidenti "Telegram" kanalında Putinlə danışıqlarına dair məlumat yayıb. Ərdoğan Rusiya və Türkiyənin məsələyə dair fəaliyyətində koordinasiyanın davam etməsinin tərəfdarı olduğunu bildirib:



"Türk-rus ortaq mərkəzinə dair dəyərləndirmələr apardıq. Türkiyənin bölgədə sabitliyi qoruyacağını və hər cür dəstəyi verməyimizin lazım olduğunu, sülh adına yeni dövrün başladığını söylədik. Biz Dağlıq Qarabağda sülhməramlı və müşahidə fəaliyyətinə ehtiyac olmadan birlikdə mövcudluğu təmin edəcək şərait yaratmaq istəyirik". Dağlıq Qarabağda yaxın gələcəkdə sülhməramlılara ehtiyacın olmayacağını bir müddət əvvəl Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da ifadə etmişdi. Ekspertlərin sözlərinə görə, bu açıqlamaları ilə həm Ərdoğan, həm də Çavuşoğlu Rusiyanın birtərəfli qaydada Dağlıq Qarabağda hərbi iştirakından narahat olduqlarını bildirmək istəyirlər. Digər tərəfdən Ankara bu açıqlama ilə Moskvaya mesaj da göndərir ki, Rusiya hərbçilərinin Dağlıq Qarabağda varlığı müvəqqəti olmalıdır. Təbii olaraq, bu məqam Azərbaycanın da maraqlarına uyğundur.

*Rusiya və Türkiyə liderlərinin müzakirəsini "Şərq"ə dəyərləndirən siyasi şərhçi, fəlsəfə elmləri doktoru Füzuli Məhəmməd öncə Moskva görüşləri barəsində fikirlərini bəyan edib. Analitik vurğulayıb ki, görüşü təşkil edən Rusiya Qarabağın "statusu" məsələsini qaldırmadı və arxa plana atdı. Çünki bu məqam Moskvanı maraqlandırmır:* "Kreml daha çox regiondakı geosiyasi sabitliyi təmin etmək üçün kommunikasiyaların bərpasını təmin etmək, Ermənistan da daxil olmaqla bölgədəki bütün ölkələr arasında əməkdaşlıq yaratmaq məqsədi güdür. Kommunikasiya ilə bağlı müzakirələrin arxasında bu məqam dayanır. Maraqlı cəhət odur ki, bu cür əməkdaşlıq formatının təşəbbüskarı Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Məhz dövlət başçımız "altılıq əməkdaşlıq platforması"nı təklif etmişdi. Atılan addımlar həmin istiqamət üzrədir. Digər məqam ondan ibarətdir ki, dünyada qlobal miqyasda geosiyasi mənzərə çox mürəkkəbdir. Regiona kənar təsirlərin olması ehtimalı çoxdur. Bu təsirlərin neytrallaşması üçün bölgədə sabitlik olmalıdır. Sabitliyin qarantı kimi Rusiya və Türkiyə çıxış edir. İki böyük dövlət Qarabağ daxil olmaqla, Cənubi Qafqazda təhlükəsizliyin təminatı sayılır".



**Ekspert vurğulayıb ki, Ərdoğan çox böyük siyasətçi və liderdir. Hər zaman strateji məqamları düşünür:** "Rusiya dövlət başçısı ilə telefon danışığı Putinin təşəbbüsü sayəsində baş tutub. Telefon söhbətinin təfərrüatı haqqında məlumat verən Türkiyə prezidenti iki mühüm məqama diqqət çəkib. Vurğulayıb ki, kommunikasiyaların açılması yönündə atılmış addımları dəstəkləyir. O da hesab edir ki, Çindən tutmuş Avropaya qədər böyük bir məkanda irimiqyaslı layihələrin reallaşması, Azərbaycan və Türkiyənin içində olduğu yeni nəqliyyat marşrutunun yaranması olduqca zəruridir. Putin də bu cür düşünür. Ərdoğanın Rusiya sülhməramlıları ilə bağlı ifadələrini də normal qarşılamaq lazımdır. Sülhməramlıya o vaxt ehtiyac duyulmur ki, bölgədə sabitlik təmin olunur, təhlükə qalmır. Kiminsə kənardan gəlib "sülh" təsis etməsi tələb edilmir. Türkiyə lideri də bəyan edir ki, rus sülhməramlıları orada müvəqqətidir. Gələcəkdə elə vəziyyət yaratmalı, bölgədə əməkdaşlığı elə səviyyəyə çatdırmalıyıq ki, ümumiyyətlə, sülhməramlı qüvvələrin varlığına zərurət olmasın. Həm də Ərdoğan ABŞ və Avropa ölkələrinə mesaj verir ki, bundan sonra heç bir dövlətin regiona "sülhməramlı" adı ilə müdaxiləsinə imkan verilməyəcək. Çünki məqsəd Cənubi Qafqazda hansısa ölkənin hərbi kontingentini yaratmaq deyil. Əgər Türkiyənin belə bir məqsədi, fəaliyyəti yoxdursa, Rusiya, İran və Qərb dövlətlərinin də olmamalıdır. Bölgəmiz mümkün qədər silahsızlaşdırılmalı, hərbsizləşdirilməlidir. Qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək lazımdır ki, sülh və sabitlik davamlı olsun. Türkiyə rəhbəri bunları diqqətə çatdırmaq istəyir".

**İsmayıl Qocayev**

# "Amnesty International" da erməni vəhşiliyini dilə gətirir

## "Beynəlxalq təşkilatlar məcbur oldular ki, ermənilərin dinc əhaliyə qarşı cinayətkarlığından bəhs etsinlər"

44 günlük "Vətən" müharibəsi dünya mediasının gündəmində olan mövzulardandır. Bu müddət ərzində Prezident İlham Əliyev dəfələrlə dünyanın öncül kanallarına müsahibələrində ermənilərin işğalçılıq siyasəti, cinayətkarlığına qarşı haqlı mübarizəmizi diqqətə çatdırırdı. Münaqişə ərzində bəzi media orqanları qərəzli və bitərəf məqalələr yayınladı, bəziləri isə xüsusən Türkiyə və Şərq ölkələri Qarabağ həqiqətlərini olduğu kimi təqdim etdi. Bir sözlə, Azərbaycan həqiqətləri, Qarabağa dair reallıqlar dünya ictimaiyyətinin diqqətinə çatdırıldı.

Bunun real nəticələri də müşahidə olunur. Məsələn "Amnesty International" Ermənistanı cinayətkar sayır. Belə ki, 2020-ci il sentyabrın sonundan noyabrın əvvəlindək davam etmiş 44 günlük münaqişə zamanı Ermənistan silahlı qüvvələri Azərbaycanda dinc sakinlərə hücum üçün qeyri-dəqiq ballistik raketlərdən, idarə olunmayan yaylım atəşli raket sistemlərindən və artilleriyadan istifadə edib.

Məlumata görə, bu barədə "Amnesty International" təşkilatının hesabatında deyilir.

Hesabatda qeyd olunur ki, yaşayış məntəqələri yaxınlığında qeyri-dəqiq silahlardan istifadə müharibə qanunlarının pozulması deməkdir.

Noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatı imzalamasından sonra "Amnesty International" nümayəndələri Azərbaycanda raket zərbələri endirilmiş yerlərə baş çəkiblər. Təşkilat erməni qoşunlarının dinc şəhər və kəndlərə endirdiyi və 72 dinc sakinin həlak olduğu 8 raket zərbəsi faktını sənədləşdirib. Belə ki, oktyabrın 17-də Gəncədə yaşayış məntəqəsinə SCUD-B ballistik raketinin atılması nəticəsində 21 dinc sakin həlak olub, 50-dən çox sakin yaralanıb. Oktyabrın 27-də Bərdənin Qarayusifli kəndinə kaset bombasının atılması nəticəsində beş nəfər həlak olub, 14 nəfər isə yaralanıb.

Hesabatda həmçinin bildirilir ki, oktyabrın 28-də erməni qoşunları cəbhə xəttindən 20 kilometrdən çox məsafədə yerləşən Bərdə şəhərinə bir neçə raket atıb. Raketlərdən biri, içərisində 72 kasset bombası olan "Smerç" raketi insanların sıx olduğu əraziyə düşüb və nəticədə 21 nəfər həlak olub.

"Amnesty International" əlavə edib ki, sentyabrın 27-də Naftalan yaxınlığındakı Qaşaltı kəndinə artilleriya zərbəsi nəticəsində bir ailənin 5 üzvü həlak olub.

**Mövzu ilə bağlı "Şərq"ə danışan Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov deyib ki, Prezident İlham Əliyev 44 günlük müharibə dövründə informasiya blokadasının yarılmasında müstəsna rol oynayıb.** Onun sözlərinə görə, Türkiyə və bəzi kanalları çıxmaq şərtilə müsahibə götürən jurnalistlər xoş məramla gəlmirdi:

"Əksəriyyəti özlüyündə düşünürdü ki, Prezidentimizi çıxılmaz vəziyyətə salacaq. Tam əksinə oldu, ən provokativ mövqe tutan jurnalistlər dərs alıb getdilər. Onlar

### "Əvvəlcə bunu "Humans Right Watch", ardınca "Amnesty International" etdi"

məcbur oldular ki, aldıqları müsahibəni yayımlasınlar. Eyni zamanda informasiya müharibəsində prezidentin müvafiq komandası və cəmiyyət də fəal iştirak etdi. Özüm sosial şəbəkələrdəki proseslərin iştirakçısı olaraq görürdüm ki, ermənilər informasiya müharibəsində məğlub olurdular. Dünyanın insan hüquqlarını müdafiə edən təşkilatlar -"Amnesty International" , "Human Right Watch" və digərləri ilk dönəmdə Azərbaycana qarşı bitərəfli mövqe sərgilədilər".

*S.Məmmədov vurğalayıb ki, Ermənistan döyüş meydanından kənarda olan mülki obyektləri, o cümlədən yaşayış məntəqələrini, inzibati binaları, hətta qəbiristanlıqları, həmçinin döyüş zonasından 80-300 km uzaqda yerləşən yaşayış məntəqələrini idarə olunan və qadağan olunmuş raketlərlə atəşə tutdular. Bu, geniş rezonans doğurdu. Həmin təşkilatlar məcbur oldular ki, ermənilərin dinc əhaliyə qarşı cinayətkarlığından bəhs etsinlər:*

"Əvvəlcə bunu "Humans Right Watch", ardınca " Amnesty International" etdi. Buna rəğmən, onlar tərəfləri bərabərləşdirməyə cəhd edirdilər. Bu günlərdə "Amnesty International"ın yeni hesabatında göstərilir ki, həm Ermənistan, həm də Azərbaycan məqsədyönlü şəkildə mülki əraziləri atəşə tutub. Amma onlar bir faktı unudurlar, bizim 101 nəfər mülki vətəndaşımız ölüb. Ermənistan tərəfində isə həmin ərazilər bilavasitə döyüşün getdiyi məkanlar idi. Müharibə məntiqinə görə, onlarda itki çox olmalıydı.

Lakin Ermənistan yalandan bir neçə adamın adını çəkdi. Bütün bunlara baxmayaraq, 44 günlük müharibə müddətində yalnız torpaqlar işğaldan azad edilmədi, həmçinin informasiya və diplomatiya müharibəsində də qələbə qazanmış olduq".

**Sonda S.Məmmədov onu da əlavə edib ki, son zamanlarda Ermənistan informasiya müharibəsi ilə bağlı daha çox azğınlaşıb:**

"Çoxlu "fake" məlumatlarla dünya ictimaiyyətini aldatmağa davam edirlər.

Məsələn "Azərpoçt"un poçt markaları var, həmin markalarda xüsusi geyimdə olan azərbaycanlı həkim və ya hərbçi Qarabağ ərazisində dezinfeksiya işləri aparır. Burada nəzərdə tutulur ki, Dağlıq Qarabağdakı ərazilərimiz terrorçulardan, xarici muzdlulardan silahlı qüvvələrdən təmizlənir. Amma ermənilər bunu fərqli formada dünyaya təqdim edir.

Guya, erməni xalqını virus hesab edərək dezinfeksiya edirik. Bununla bağlı çox total kampaniya başladıblar. Bunu yaxşı izah edib qarşısını almaq lazımdır. Ermənistan hərbi meydanda biabrçı şəkildə məğlub olub. Lakin informasiya cəbhəsində tam məğlub olmayıblar, yenə də çirkin əməllərindən əl çəkmirlər.

Dünya parlamentində hər hansı qərarların qəbul edilməsinə nail olurlar. Hərbi əməliyyatlar dayanıb, amma informasiya müharibəsi davam edir".

**Aygün Tahirqızı**

# Gerçək hədəflər bəlli olur

## Rus mediası Azərbaycanla Ermənistan arasında inşa ediləcək yolları və dəmir yolu layihələrini göstərən xəritəni öz səhifələrində yayımlayıb

Moskvada imzalanan razılaşma ilə Türkiyə və Azərbaycan arasında quru əlaqəsinin leqallaşdırılması Ermənistanda böyük narahatçılığa səbəb olub. Türkiyənin milliyyet.com saytı xəbər verir ki, BBC-yə danışan erməni analitikləri Baş nazir Paşinyanın yenidən hədəf lövhəsində olduğunu söyləyərək, Rusiyanın Azərbaycanın tərəfini tutduğunu iddia ediblər. Ancaq rus qəzetində dərc olunan bir məqalədə Moskvanın Dağlıq Qarabağdakı əsl hədəf açıqca ortaya qoyulub.



### "Xəritədə Azərbaycanla Türkiyə arasında qurulacaq əlaqə açıq şəkildə göstərilir. Yeni layihə Ermənistan və Rusiya ilə əlaqələri də əhatə edir"

Rusiyanın paytaxtı Moskva keçirilən görüşdə Türkiyə ilə Azərbaycanı birbaşa bağlayan xəritənin sərbəst yayılması Dağlıq Qarabağ məsələsini bir daha gündəmə çıxarıb. Rusiyanın "Kommersant" qəzeti isə Azərbaycanla Ermənistan arasında inşa ediləcək yolları və dəmir yolu layihələrini göstərən xəritəni öz səhifələrində yayımlayıb. Xəritədə Azərbaycanla Türkiyə arasında qurulacaq əlaqə açıq şəkildə göstərilir. Yeni layihə Ermənistan və Rusiya ilə əlaqələri də əhatə edir. 2020-ci ilin noyabrında məğlubiyyətini etiraf edən və işğal etdiyi ərazilərin əksəriyyətindən geri çəkilən Ermənistanda 11 yanvar bəyanatı yeni bir siyasi təlatümə səbəb olub. Yerli media olan "Zhoghovurd" qəzeti isə müharibədən sonra Ermənistanda bəzi Milli Təhlükəsizlik Xidmətinin işçilərinin siyasətçilərin əmrlərini rədd etdiyini yazıb. Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın bir araya gəldiyi görüşün nəticələri Yerevanda böyük məyusluq yaradıb. BBC xəbər verir ki, Ermənistan 44 günlük Dağlıq Qarabağ müharibəsi zamanı Azərbaycan tərəfindən əsir götürülən əsgərlərin geri qaytarılması ilə bağlı Moskva danışıqlarında bir razılaşma gözləyirdi. Ermənistanın ilk ombudsmanı və Qanuni Şiddətə Qarşı Vətəndaş Cəmiyyəti Təşkilatının rəhbəri Larisa Alaverdyan "Yalnız müsbət hal danışıqların davam etməsidir. Danışıqlar olarsa, müharibə olmayacaq" deyib.

"Qloballaşma və Regional Əməkdaşlıq Analitik Mərkəzi"nin rəhbəri Stepan Grigoryan isə bildirib ki, Ermənistanın ən böyük narahatlığı məhbusların və girovların azadlığa buraxılmamasıdır. O qeyd edib ki, digər məsələlərin bizim üçün nə qədər vacib olduğunu söyləmək çətindir. BBC-yə danışan politoloq Stepan Grigoryan əlavə edib ki, erməni tərəfi üçün digər bir vacib məsələ "Dağlıq Qarabağın" statusu ilə bağlı danışıqlara başlaması idi. Bu da baş vermədi. S.Qriqoryanın sözlərinə görə, vəziyyət Rusiya tərəfindən idarə olunur və Moskva hazırda çox güclü bir formada Azərbaycan tərəfindədir: "Bu gün Rusiya demək olar ki, Azərbaycan tərəfinə vasitəçilik edir. Buna təəccüblənirəm. Həm Vladimir Putin, həm də Xarici işlər naziri Sergey Lavrov bu istiqaməti tutdu".

"Strateji və Texnoloji Analiz Mərkəzi"nin direktor müavini Konstantin Makiyenko "Rusiya ikinci Qarabağ müharibəsində necə uduzdu?" başlıqlı məqaləsində Qarabağ müharibəsinin həm Rusiya, həm də Ermənistan üçün fəlakətlə sona çatdığını deyib: "Uğurlu vasitəçilik və sülhməramlıların yerləşdirilməsindən ibarət aldadıcı xarici siyasət zəfərinin incə pərdəsinin arxasında tezliklə acı bir həqiqət ortaya çıxacaq. Bunun əksinə olaraq, Türkiyənin nüfuzu və prestiji isə tamamilə müvəffəq bir şəkildə artıb".

Makiyenko yaxın beş ildə Rusiyanın Ermənistan tərəfindən belə tanınmayan "Dağlıq Qarabağ" rəhbərliyini ələ keçirə biləcəyini iddia edib. O, açılan yeni səhifədə ən böyük problemin Qarabağın status-kvosunun qorunması və möhkəmləndirilməsi olacağını vurğulayıb: "Bu çözümün həlli rus diplomatiyasına və hərbi qüvvələrinə bağlı deyil. Bunun nəticəsini yalnız Rusiya və Türkiyə təyin edəcək. Türkiyə 10 illik müdafiə texnologiyasını müasir silahlarla yeniləyib. Onların silahlı insansız hava vasitələri ilə Azərbaycan qələbə çaldı. Ermənilər üçün tək ümid yalnız yüksək texnologiya ilə təchiz edilmiş yeni bir ordu yaratmaqdır".

**Aynurə Pənahqızı**

# Ən yaxşı töhfə olar




## "Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabı xarici dillərdə nəşr edilsin"

Tarixçi-alim Firdovsiyyə Əhmədova feysbuk hesabında maraqlı təşəbbüs irəli sürüb. O təklif edib ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabını aparıcı dillərə çevirib nəşr etmək olar.

F.Əhmədova söyləyib ki, 2021-ci il Qarabağ quruculuğu ili kimi tarixə düşəcəksə də, dağlıq hissəsində xarici qüvvələrin qalması və fəaliyyəti ciddi təşviş doğurmaqdadır: "Bu il "Nizami Gəncəvi ili" elan olunub. M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabını nəşr etmək elmi, tarixi və siyasi anlamda böyük əhəmiyyət kəsb edir".

**F.Əhmədova sözügedən məsələ ilə əlaqədar "Şərq"ə daha geniş açıqlama verib. Onun sözlərinə görə, Nizami Gəncəvi elə bir dühadır ki, bütün xalqlar öz tarixlərində belə bir şəxsiyyətin olmasını istəyər:** "Xalqımız xoşbəxtdir ki, 12-ci əsrdə Azərbaycanın belə şairi və dahi mütəfəkkiri olub. Zaman-zaman Azərbaycan ədəbiyyatı və mədəniyyətinə aid olanları mənimsəmək istəyən qüvvələr olub. Daim Nizami Gəncəvini də Azərbaycan kimliyindən qoparmaq istəyənlərə rast gəlirik. Xüsusilə qonşu ermənilər tərəfindən belə saxtakarlıqların şahidi olmuşuq.

N.Gəncəvi əsasən fars dilində yazdığı üçün onu fars şairi kimi qələmə verib, qəbul etdirmək istəyiblər. Əlbəttə, bu iddiaların hər hansı bir əsası yoxdur. Lakin 1941-ci ildə M.Ə.Rəsulzadənin N. Gəncəvinin yubileyi ilə bağlı yazdığı "Azərbaycan şairi Nizami" adlı mükəmməl əsəri var.

Bu kitabda Nizaminin Azərbaycan şairi kimi təqdimatı verilib. Əsər zamanında da yüksək qiymətləndirilib. Təbii ki, kitab sovetlər dönəmində çap oluna bilməzdi. Bu baxımdan müstəqilliyimiz bərpa olunduqdan sonra az tirajla da olsa, nəşr edildi.

*F.Əhmədova vurğulayıb ki, əsərin xarici dillərdə çap olunması və dünyanın aparıcı kitabxanalarında belə kitabın yer alması olduqca mühüm əhəmiyyət kəsb edir:* "Bu il N.Gəncəvi ilinin elan edilməsini nəzərə alaraq düşündüm ki, ən yaxşı töhfələrdən biri bu kitabın xarici dillərdə nəşridir. Təklifi dəstəkləyənlər oldu. Amma bu məsələni daha geniş auditoriyaya və respublika ictimaiyyəti səviyyəsində müzakirəyə çıxarsaq, birmənalı dəstək olacaq.



**"Bu məsələni daha geniş auditoriyaya və respublika ictimaiyyəti səviyyəsində müzakirəyə çıxarsaq, birmənalı dəstək olacaq"**

Çünki söhbət N.Gəncəvidən, onun Azərbaycan şairi kimi təqdimatından və əsərin M.Ə.Rəsulzadə tərəfindən mükəmməl səviyyədə yazılmasından gedir. Ölkəmizdə N.Gəncəvi ilə bağlı beynəlxalq mərkəz mövcuddur.

Bu qurum ən azından əsərin ingilis dilinə tərcümə olunmasında yardımçı ola bilər. Lakin kitabın başqa dillərə də tərcümə olunaraq nəşr edilməsi lazımlı və faydalıdır".

**Yeganə Bayramova**



# Məbləği açıqlandı

## Vətən müharibəsində 91 milyon manat ziyan dəyib

**2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın məbləği məlum olub.**

APA xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov məlumat verib.

**İ. Məmmədov bildirib ki, ümumilikdə dəymiş ziyanın məbləği təxminən 91 milyon manatdır:**

"Nəqliyyat vasitələri üzrə dəymiş ziyan 400 min manat məbləğində, kənd təsərrüfatı üzrə (mal-qara, texnika və s.) 1 milyon 311 min manat, sahibkarlıq subyektləri üzrə (avadanlıq, alət) 2 milyon 500 min manat, Tərtər Pambıq zavoduna 3 milyon 524,6 min manat, infrastruktur üzrə (avtomobil yolları, poçt, rabitə, elektrik, qaz və su təchizatı, informasiya təminatı) 27 milyon 410 min manat, fərdi yaşayış, çoxmənzilli evlər və digər tikililər üzrə 19 milyon 200 min manat və s. zərərlər qiymətləndirilib".

## "Nizami ili" ICESCO-da da qeyd ediləcək



**Nizami Gəncəvi ili ICESCO çərçivəsində təntənəli şəkildə qeyd olunacaq.**

APA-nın məlumatına görə, bu barədə ADA Universitetində keçirilən mətbuat konfransında mədəniyyət naziri Anar Kərimov bildirib. Nazir deyib ki, artıq ICESCO-nun baş direktoru Salim Bin Məhəmməd əl-Maliklə də bununla bağlı razılıq əldə edilib: "Azərbaycanda 2021-ci ilin "Nizami ili" elan olunması çərçivəsində ICESCO-da da bununla bağlı tədbirlər keçiriləcək. Əminəm ki, bu tədbir Nizami Gəncəvinin İslam dünyasına verdiyi töhfələrin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayacaq".

## Ordumuzun uğuru Britaniyanı ayıltdı

### "Ən güclü amil Azərbaycanın texnoloji gücü olub"

**Azərbaycanın Dağlıq Qarabağdakı uğuru Böyük Britaniyaya ordunun inkişafı üçün nəyə yatırım etmək lazım olduğunu göstərdi.**

Axar.az xəbər verir ki, bu barədə "UK Defense Jurnal" agentliyinin dərc etdiyi məqalədə deyilir.

Məqalədə qeyd olunur ki, Azərbaycan Dağlıq Qarabağdakı müharibədə erməni qoşunları üzərində heyrətamiz qələbə qazandı, onun hərbi strategiyası isə çətin keçilən dağlıq ərazidə çox səmərəli oldu:

"Azərbaycan ordusu çox peşəkar ordudur və işğal olunmuş ərazilərin, o cümlədən strateji vacib Şuşa şəhərinin azad edilməsində aparıcı rol oynayıb. Amma ən güclü amil Azərbaycanın texnoloji gücü olub".

Məqalədə vurğulanır ki, son məlumatlara əsasən, Böyük Britaniyan Müdafiə Nazirliyi Azərbaycanın TB2 pilotsuz uçuş aparatlarını uğurla istifadə etməsindən sonra PUA proqramını genişləndirmək niyyətindədir.

# Azərbaycanın 20 faiz ərazisi yenidən qurulacaq

## Qarabağa yatırılacaq investisiyalar qeyri-neft sektorunun inkişafını sürətləndirəcək

İşğaldan azad edilən ərazilərimizin iqtisadi potensialı prioritet məsələlərdən biridir. Azərbaycanlı iş adamı, iqtisadçı Rauf Rüstəmov bildirib ki, Dağlıq Qarabağ "Bir millət, iki dövlət" şüarı ilə modernləşdiriləcək. Onun sözlərinə görə, bölgədə 1,5 milyon əhalinin yerləşməsi gözlənilir:

"Bu, daha çox mənzil ehtiyacını gündəmə gətirir. Elan edilən investisiyanın ümumilikdə cari həcmi 27 milyard dollardır. Sənaye, kənd təsərrüfatı, xidmət sektorlarında da investisiya imkanı var".

İqtisadçı qeyd edib ki, Azərbaycanın 20 faiz ərazisi yenidən qurulacaq: "Söhbət təxminən 30 ildir sərmayə qoyulmayan 18 min kvadrat kilometrlik bölgədən gedir. Bu çərçivədə şəhərlərin qurulması, sənaye, kənd təsərrüfatı, xidmət sahələrində investisiyalara ehtiyac var.

Bu nöqtədə diqqət Türkiyəyə yönəlib. Qardaş ölkədən bölgəyə gələcək investorlara dəstək veriləcəyi gözlənilir. Kiçik və orta müəssisələr Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və İnvestisiya Agentliyinə birbaşa müraciət edərək lazımlı təşviq və dəstək paketindən faydalana biləcəklər.



Böyük şirkətlər isə İqtisadiyyat Nazirliyinin nəzdində yaradılan İnvestisiya Holdinqi ilə görüşərək uzunmüddətli və birbaşa dəstəyindən yararlana biləcəklər. Əminəm ki, türk podratçılar bölgədə rasional həllər təklif edəcəklər.

Türkiyə keçmişdə, xüsusən də müharibə zamanı Azərbaycana mənəvi dəstək verdi və uzatdığı əl ortadadır. Bizlər bu münasibəti heç vaxt unutmayacağıq".

**İqtisadçı-ekspert Azər Mehtiyev "Şərq"ə bildirib ki, işğaldan azad edilən ərazilərimiz kənd təsərrüfatının inkişafı və emal sənayesi baxımından perspektivlidir:**

"Qarabağ və ətraf rayonlar həmçinin turizmin inkişafı üçün də böyük əhəmiyyətə malikdir. Qısa müddətdə sahibkarlar hesabına bölgəyə yerli investisiyaların cəlb edilməsi mümkündür.

Bölgədə təhlükəsizlik tədbirləri görüldükcə həmin ərazilərdə kənd təsərrüfatı və digər sahələrin inkişafı üçün xarici investorların cəlb olunması lazımdır.

Bu, investisiya imkanlarını genişləndirərək ölkədə qeyri-neft sektorunun inkişafını sürətləndirəcək. Məlumdur ki, hazırda ölkəmizdə həlli ən vacib olan problemlərdən biri budur".

**İqtisadçı vurğulayıb ki, Türkiyə tikinti sektorunda dünya üzrə ən geniş təcrübəsi olan ölkələrdən biridir:** "Bu baxımdan qardaş Türkiyənin təcrübəsindən istifadə etmək olar. Təbii ki, yalnız türk yox, digər xarici investorların da bölgəyə cəlb olunması lazımdır. Amma xarici investorların infrastruktur layihələrində yox, xidmət sahələrində iştirakı da vacibdir.

Çünki xarici investorlar infrastruktur layihələrində özlərinə valyuta tapırlar. Emal sahəsində dünyada tanınmış investorların cəlb olunması ilə yeni müəssisələrin yaradılması əsas məqamlardan biridir.

Bu, bölgədəki ərazilərdə yeni iş yerlərinin yaradılması üçün də önəmli prosesdir".

**Yeganə Bayramova**



# Türkiyə Cənubi Qafqaza tam yerləşib

## Yeni güc mərkəzinin yarandığını Kreml də anlayır

**Rusiya Prezidenti Vladimir Putinlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı baş tutub. Məlumata görə, onlar Moskvada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla keçirilən görüşün əsas nəticələri barədə danışıblar.**

Bildirilir ki, Ərdoğan Dağlıq Qarabağda vəziyyətin nizamlanmasında Rusiyanın səylərini dəstəklədiyini qeyd edib.

Onlar eyni zamanda, birgə peyvənd istehsalı və istifadəsi planları da daxil olmaqla pandemiya ilə mübarizə mövzusuna da xüsusilə toxunublar.

**Görüşü şərh edən siyasi şərhçi Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, bu danışıqlarda əsasən iki önəmli məqsədi olub:**

"Birinci məqsəd Kreml sahibinin Moskvada keçirilmiş üçtərəfli görüşlə bağlı Türkiyə prezidentini birbaşa özünün məlumatlandırmaq istəyidir. İkinci məqsəd isə Rusiya-Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsi üçün növbəti konkret addımların atılmasına nail olmaqdır.

Hər iki istiqamət üzrə Rusiyanın özəl maraqları mövcuddur. Kreml də Türkiyənin artıq Cənubi Qafqaza tam yerləşdiyini anlayırlar. Ona görə də regionda Türkiyə faktoru ilə hesablaşmağın qaçılmazlığını nəzərə alırlar. Bu baxımdan, Kreml reallığa artıq əvvəlki kimi qıcıqla yanaşmağın mənasız olduğunu nəzərə alır.

Əksinə, Rusiya Türkiyənin Cənubi Qafqazda əsas geopolitik iradə sahibləri sırasında yer almasıyla artıq demək olar ki, tamamilə barışıb.

Ona görə də Kreml hazırda Cənubi Qafqazda Türkiyə ilə rəqabət mühiti yaratmaq niyyətindən kifayət qədər uzaqdır. İndi Rusiyaya Türkiyənin Cənubi Qafqazdakı yeni oyunçu statusuna müqavimət göstərməkdənsə, rəsmi Ankara ilə mümkün qədər sıx əməkdaşlıq etmək sərf edir.

Nəzərə almaq lazımdır ki, Türkiyə Azərbaycanın strateji müttəfiqidir. Qardaş ölkənin Cənubi Qafqaza yerləşməsində rəsmi Bakının da birbaşa rolu var. Kremldə bu önəmli faktoru da ciddiyə alırlar və dəyərləndirməyə çalışırlar".

**E.Xalidbəyli vurğulayıb ki, hazırda Rusiya üçün Türkiyə-Azərbaycan İttifaqı ilə əməkdaşlıq edib, yaxşı münasibətlər qurmaq olduqca sərfəlidir:** "Belə bir əməkdaşlıq Rusiyanın həm beynəlxalq, həm də regional maraqlarının təmin olunması baxımından böyük önəm daşıyır. Qərb siyasi dairələri etiraf edir ki, Türkiyə-Azərbaycan müttəfiqliyi yeni güc mərkəzinə çevrilməyə başlayıb. Kreml də, bu iki qardaş ölkənin müttəfiqliyindən ortaq maraqlar çərçivəsində faydalanmağa çalışır.

Belə maraqlar isə kifayət qədərdir. Kreml Azərbaycan-Türkiyə İttifaqı ilə dil tapa bilərsə, Rusiyanın maraqlarına təhlükə törədə biləcək başqa dövlətlərin Cənubi Qafqaza yol tapmasının da qarşısını ala bilər. Eyni zamanda, həm Rusiyanın, həm də Türkiyənin Qərb siyasi idarə mərkəzləri ilə kifayət qədər ciddi problemləri mövcuddur.

Türkiyə və Rusiya Qərbdəki rəqiblərə qarşı mövqelərini birləşdirmək şansına malikdirlər.

> **"Ona görə də regionda Türkiyə faktoru ilə hesablaşmağın qaçılmazlığını nəzərə alırlar"**

Digər tərəfdən, Kreml Cənubi Qafqazın yaxın gələcək üçün kommunikasiya, nəqliyyat, ticarət və iqtisadi cəhətdən inkşaf perspektivləri olduğunu diqqətdən yayındırmır".

Sonda siyasi şərhçi qeyd edib ki, Kreml bütün bunlardan Rusiyanın faydalanmasını istəyir, regional inkişaf prosesində iştirakçı tərəf rolunda çıxış etməyə çalışır. Bunun üçün ilk növbədə Rusiyanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin ən yüksək səviyyədə saxlanması vacib şərtlərdən biridir: "Əlbəttə ki, Kremlin Türkiyə ilə yaxınlaşmaq cəhdlərinə prezidentlər - Putin və Ərdoğan arasındakı xüsusi münasibətlər də yardım edə bilər. Çünki bu münasibətlərin pozulmasına kənardan nə qədər təsir göstərsələr də, nail olunmayıb. Hər iki prezident öz davranışları ilə bir-birinə güvənmək üçün əsas yaradıb. Bu baxımdan, Türkiyə-Rusiya münasibətlərinin yaxın gələcəkdə daha da inkişaf edə biləcəyi qətiyyən istisna deyil".

**Aygün Tahirqızı**

## Şuşada hərbçilərin qəzaya düşməsi ilə bağlı cinayət işi başlandı



**Şuşa şəhəri istiqamətində hərbi qulluqçular olan avtomobil qəzaya uğrayıb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, hadisə yanvarın 12-də baş verib. Hadisə nəticəsində Beyləqan rayonu Şəfəq qəsəbə sakini, müddətdən artıq xidmət edən hərbçi Yaqubov Həsən Hüseyn oğlu həlak olub, iki hərbçi isə xəsarət alıb.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

## Moskvada məktəblər açılır

### Tədris yanvarın 18-dən bərpa olunacaq



**Moskvada orta məktəblərdə tədris yanvarın 18-dən bərpa olunacaq.**

Trend-in məlumatına görə, bunu Moskvanın meri Sergey Sobyanin bildirib.

Qeyd olunur ki, dərslər bərpa olunduqdan sonra koronavirusa yoluxma halı qeydə alınsa, həmin şagirdin olduğu sinif distant təhsil formatına keçəcək. Bununla belə, məktəbdə dərslər davam etdiriləcək. Eyni zamanda kollec və ali məktəblər yanvarın 21-dək bağlı qalacaq.

Koronavirus pandemiyası ilə əlaqədar Moskvada tətbiq olunmuş digər məhdudiyyət tədbirləri də yanvarın 21-dək qüvvədə qalır.

## TANAP ildə 1,5 milyard dollar gəlir əldə edəcək

**TANAP tam gücünə çatdıqdan sonra ildə 1,5 milyard dollar gəlir əldə edəcək.**

Trend-in məlumatına görə, bunu TANAP-ın baş direktoru Saltuk Düzyol onlayn mətbuat konfransında deyib.

O bildirib ki, hazırda TANAP vasitəsilə sutkada milyon kubmetr qaz nəql edilir. 2020-ci ildə boru kəməri ilə Türkiyəyə 5 milyard qaz nəql edilib:"TANAP və Trans-Adriatik boru kəməri tam gücünə çatdıqdan sonra ildə 1,5 milyard dollar gəlir əldə edəcək".

# İtirən Ermənistandır

## Türk mallarına qadağanın Ankaraya isti-soyuğu yoxdur

Yanvar ayından Ermənistanda türk mallarının idxalına 6 aylıq müvəqqəti qadağa qüvvəyə minib. Qərar oktyabr ayında verilsə də, ticarət şirkətlərinə türk məhsullarını əvəz edə bilmələri üçün vaxt verilib. Məlumata görə, Ermənistan Türkiyə məhsullarını İran malları ilə əvəz etməyi planlaşdırır. İranın Ticarətin Təşviqi Təşkilatının rəsmi nümayəndəsi deyib ki, Ermənistan 2250 adda türk malını İran məhsulları ilə əvəzləmək niyyətindədir:

"Bu, iranlı istehsalçılar üçün yaxşı bir fürsətdir". Erməni mediasının yazdığına görə, hökumətin türk məhsullarına qoyduğu qadağa Türkiyənin Azərbaycana dəstək verməsi ilə bağlıdır. Yerevan Ankaranı "cəzalandırmaq" məqsədi ilə bu cür absurd qərar qəbul edib. Məsələ ondadır ki, məlum qadağanın zərbəsi Türkiyəyə deyil, Ermənistandakı istehlakçılara dəyir. Xatırladaq ki, Ermənistan son illərdə Türkiyədən təxminən 250 milyon dollarlıq mal idxal edib.

> **"Əgər Yerevanda rasional düşüncə qalib gələrsə, erməni xalqının gələcəyini xilas etmiş olarlar"**



**Qərarı "Şərq"ə təhlil edən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, ermənilər müharibədəki ağır məğlubiyyət səbəbindən ötən ilin oktyabr ayında belə qadağa tətbiq ediblər. Ekspertin sözlərinə görə, populist qərar daxili auditoriya üçün gündəmə gəlmişdi:** "Bunun Türkiyəyə isti-soyuğu yoxdur. Türkiyənin illik ticarət dövriyyəsi 136 milyard dollardır. Bu qədər böyük dövriyyənin arasında 250 milyonluq məhsul qadağası qardaş ölkəyə ciddi problem yaratmır. Ziyan görən məhz ermənilər olacaq. Keyfiyyətli türk mallarının aşağı keyfiyyətli məhsullarla əvəzlənməsi istehlakçıların narazılığına gətirib çıxaraq. Çox güman ki, qərar qısa müddət sonra yenidən nəzərdən keçiriləcək və ləğv ediləcək. Həm də nəzərə almaq lazımdır ki, Türkiyədən birbaşa idxalatın olmaması o demək deyil ki, türk malları Ermənistan bazarına gəlməyəcək. Türk malları Gürcüstan üzərindən ermənilərə çatdırıla bilər. Bu cür qərar effektsizdir".

*İqtisadçı vurğulayıb ki, Ermənistanın gələcəyi region ölkələri, ələlxüsus Türkiyə və Azərbaycanla yaxın əməkdaşlıqdan asılıdır:* "Ermənistanın Qərbə çıxışı Türkiyə üzərindən mümkündür. Kommunikasiyaların bərpası ermənilərə hamıdan çox lazımdır. Ermənistan uzun zamandır özünü bütün iqtisadi layihələrdən, regional əməkdaşlıqdan təcrid edib. Əgər Yerevan işğalçılıq siyasətindən birdəfəlik əl çəkərsə, Azərbaycanın qanuni sərhədlərinə hörmətlə yanaşarsa, xülyalardan uzaq duraraq qonşulara qarşı aqressiv siyasətə son qoyarsa, udan tərəf ermənilər olar. Ermənistan çox primitiv iqtisadi modelə sahibdir. Hər şey Ermənistandan asılıdır. Obrazlı desək, "top Yerevandadır". Türkiyə ilə sərhədlərin açılmasında da ilk növbədə Ermənistan maraqlı olmalıdır. Ankara hökuməti buna hazır olduğunu dəfələrlə bəyan edib. Əgər Yerevanda rasional düşüncə qalib gələrsə, erməni xalqının gələcəyini xilas etmiş olarlar".

**İsmayıl Qocayev**



# Yoldaşını tankdan çıxarmaq istəyəndə snayper ürəyindən vurub

## Şəhid Arif Qeybiyevin döyüş yolunu həyat yoldaşı "Şərq"ə danışır

**Şəhid haqqında yazmaq çox çətindir, çox. Ağrıların içində qovrulursan sanki. Yaza-yaza qəhərlənirsən. Vətən uğrunda özünü şam edənlərin yarım qalan həyatları, nakam arzuları, geridə qoyduqları adamın ürəyinə od salır.**

Həm də şəhidlərimizi təsvir edəcək bir söz tapmaq da çətindir. Axı nə deyəsən ki, bu müqəddəs oğullara layiq olsun?

Şübhəsiz ki, sözlər də bizim kimi, onların uca məqamları qarşısında acizdir.

"Şərq" bu dəfə də oxucularına Vətənin şəhid balalarından birini tanıdacaq. Qeybiyev Arif İsmayıl oğlu 1997-ci ildə Astara rayonunun, Səncərədi kəndində dünyaya göz açıb. Orta məktəbdə oxuyarkən atletika ilə məşğul olub. Hətta atletika üzrə yarışlarda birinci, ikinci və üçüncü yerlərə layiq görülüb, üç qat Azərbaycan çempionudur. Arif Astara rayon Pedaqoji kollecinin Bədən tərbiyəsi fakültəsində təhsil alıb. İdman üzrə nailiyyətlər qazanıb, fəxri fərmanlarla təltif olunub. Əlliyə yaxın diplomunun 30-u birincilik əldə etdiyi üçün verilib. 2015-ci il Olimpiya oyunlarında iştirak edib. Astarada Tarixi İpək yolu alov qoruyanların sırasında məşəl yandırıb. Nəhayət, 2016-cı ildə kolleci bitirib, hərbi xidmətə yollanıb. Naxçıvan Muxtar Respublikasının Xüsusi Təyinatlı Qüvvələrində xidmət edib. O həmin vaxtda da uğurlar qazanıb, fəxri fərmanla təltif olunub. Xidmətdən sonra orduya yazılmaq üçün sənəd verib. Üçüncü cəhddən sonra Füzuli rayonunda kursa çağırılıb. Arif 2019-cu ilin yanvar ayında Ağcabədidə N saylı hərbi hissədə "Maxe" vəzifəsində, tankçı tuşlayıcı kimi işə başlayıb. Ardınca Füzuli rayonuna göndərilib. Bundan sonrası isə Vətən müharibəsidir...

Onun ömür-gün yoldaşı İranə Qeybiyeva danışır ki, Arif İkinci Qarabağ müharibəsinin birinci günündə şəhadətə ucalıb:

"Döyüşün qızğın vaxtı Arif dostu Teymurlu Mirrahilin tankının minaya düşdüyünü görür. Özü tankdan çıxıb, 200 metr məsafədə olan silahdaşına köməyə gedib. Tankın üstünə qalxıb. O nə qədər tankın lükünə vursa da, dostundan səs gəlmir. On beş dəqiqə ərzində cəhd edir, lakin lükü aça bilmir. O an Arif snayper gülləsi ilə ürəyindən vurulur. Döyüş yoldaşları onu çətinliklə səngərə aparırlar. Onların sözlərinə görə, Arif son dəfə deyib ki, məni atamın yanında dəfn edərsiz, qızım, ailəm sizə əmanətdir. Bunu söyləyib, şəhid olur. Xilas etməyə çalışdığı Teymur da tankda yanaraq şəhadətə ucalıb. Arif Astara rayonunda Məhəmməd Hənifə Məscidinin həyətində, vəsiyyətinə uyğun atasının yanında dəfn olunub".






İranə xanım yoldaşını saf, ürəyi təmiz bir insan kimi xatırlayır: "Tez əsəbiləşib, tez sakitləşərdi. Gözəl həyat yoldaşı idi, ailəsinə bağlıydı. Evdən işə çatana qədər on dəfə zəng vurub, maraqlanardı. İmkan tapdıqca gün ərzində dəfələrlə danışırdıq. Qızına çox düşkün idi. Hər zəngində əvvəlcə Gülnuru soruşurdu. Dönə-dönə övladımızı mənə tapşırırdı. Hətta sentyabrın 26-sı danışdıq. Dedi ki, Gülnur sənə əmanətdir, mən olmasam da ona yaxşı bax".

**Xanımı söyləyir ki, Arif tez-tez şəhidlik haqqında danışarmış:** "Deyirdi, şəhid olacam. Ağlayırdım ki, bəs mən nə edərəm? Qızımızı necə böyüdəcəm. O isə cavab verirdi: "Mənim şəhidliyimlə qızım da ucalacaq. Hər yerdə öndə olacaq. Deyəcəklər ki, qəhrəmanın qızıdır. Şəhidliyimə görə sıxıntınız olmaz. Mənimlə fəxr edərsiz". Yəni şəhidliyi özü arzulayırdı. Toyumuzda belə maşınları bayraqla bəzədi. Bir də həmişə bu sözü təkrarlayırdı: "Çöldə pis-pis ölməkdənsə, Vətən yolunda şəhid olaram. Bayraqla qarşılayarlar məni".

**Və İranə xanım Arifin yoxluğu ilə barışa bilmir:** "Bir boşluqdayam, ordan çıxmağı bacarmıram. Təsəllim onun məzar daşıdır. Arif mənə həyat yoldaşından ötə idi. Onsuz yaşamaq çox çətindir. Hər an ağlımdadır, heç yadımdan çıxmır. İnanın, paltarlarını geyinirəm, onun xatirələri ilə yaşayıram, bütün gün fotolarına baxıram. Sanki həyat mənim üçün dayanıb. Bir də biz 2 il nişanlı qaldıq, 1il 5 ay ailəli olduq. Bu müddət ərzində mənə illərin xoşbəxtliyini yaşatdı".

*Qeyd edək ki, Arif Qeybiyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.*



# Yoluxma sayı 380 nəfərə düşdü

## Koronadan son sutkada 1159 nəfər sağalıb, 14 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 380 yeni yoluxma faktı qeydə alınıb, 1159 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 226 200 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 213 279 nəfər müalicə olunaraq sağalıb, 2 971 nəfər vəfat edib, aktiv xəstə sayı 9 950 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 653, ötən müddət ərzində isə ümumilikdə 2 295 612 test aparılıb.

# Erməni silahlı birləşmələrinin Suqovuşanda atıb qaçdığı silah-sursat aşkarlanıb



**İşğaldan azad edilmiş ərazilərdə Ermənistan ordusunun atıb qaçdığı odlu silah-sursatın aşkar edilməsi istiqamətində tədbirlər davam etdirilir.**

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Şərq"ə verilən məlumata görə, Tərtər RPŞ-nin əməkdaşları rayonun Suqovuşan kəndi ərazisində xidmətdə olarkən həmin ərazidən 1 ədəd 60 mm-lik minaatan silahı, həmin silaha məxsus 72 ədəd mərmi, 5 ədəd 30 mm-lik AQS-17 qumbaraatan silahı, dolu sandığı və sursatı ilə birgə 2 ədəd 12.7 mm-lik PKT, 1 ədəd PK pulemyotu, hava hücumundan müdafiə üçün atışa hazır vəziyyətdə "İQLA" raket kompleksi, 1 ədəd "Muxa" markalı RPQ-18 qumbaraatan, 3 ədəd tank əleyhinə RPQ-7 mərmisi, 1 ədəd snayper tüfəngi, 2 qutu 12.7 mm-lik patronlar, 1 ədəd əl radiostansiyası və qidalandırıcısı aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# "Yaxın 3 ayda devalvasiya olmayacaq"

## Əkrəm Həsənov: "Milli valyutaya təzyiq güclü deyil, niyə devalvasiya olsun ki?!"

Azərbaycanda və ölkədən kənarda yaşayanlar manatın taleyi ilə bağlı xeyli suallar verirlər. Sosial şəbəkələrdə "Azərbaycan valyutası mütləq devalvasiyaya uğrayacaq" deyə fikirlər səslənir. Bu iddialar əhali arasında da ajiotaja səbəb olub. Mərkəzi Bank isə manatın ucuzlaşması ilə bağlı sosial şəbəkə və mətbuatda gedən xəbərlərin əsassız olduğunu açıqlayıb.

Buna rəğmən artıq dollar alğı-satqısı ilə bağlı "qara bazar"ın yaranmasına dair iddialar da var. Məlumata görə, "qara bazar"da 1 dollar 1, 72 və 1, 74 Azərbaycan manatına dəyişdirilir. Halbuki, rəsmi məzənnəyə görə, ölkəmizdə 1 dollar 1.70 AZN-dir.

Maraqlıdır, görəsən, devalvasiya ola bilərmi və bunun üçün iqtisadi əsaslar varmı?

**Mövzu ilə bağlı "Şərq"ə danışan bank məsələləri üzrə ekspert Əkrəm Həsənov vurğulayıb ki, devalvasiya olacağı barədə obyektiv əsaslar yoxdur:** "Bir tərəfdən neftin qiyməti qalxır, bu o deməkdir ki, Azərbaycanın valyuta ehtiyatları da artır. Düzdür, ehtimal edilir, neftin qiyməti bu həddə uzunmüddətli qalmayacaq.

Hər halda neftin qiyməti düşmədiyi üçün devalvasiyaya əsas olduğunu deyə bilmərik. Digər tərəfdən Mərkəzi Bank dövriyyədə olan manat kütləsini azaldıb. Buna da banklara verilən kreditləri azaltmaqla nail olub. Dövriyyədə manat azdırsa, deməli, dollar alanlar da çox ola bilməz.

Milli valyutaya təzyiq güclü deyil, niyə devalvasiya olsun ki?! İndiki aylarda bunun üçün heç bir əsas yoxdur. İnsanlar arasında olan panika yanacağın qiymətinin qalxmasına görədir.

Əslində bunun devalvasiya ilə heç bir bağlılığı yoxdur. Həmçinin "qara bazar"ın sahibləri dollar satışına görə əhali arasında panikanın yaranmasına maraqlıdırlar".



**Ekspert bildirib ki, yaxın 3 ayda devalvasiya baş verməyəcək:** "Pandemiyadır, insanların iş baxımından problemi var. Devalvasiya olarsa, xaricdən daxil olan malların qiyməti qalxacaq. İstənilən halda dollarla götürülən kreditlər də var.

Bu, ölkə iqtisadiyyatı üçün problem yarada bilər.

Uzunmüddətli perspektivdə, yəni 3 il ərzində mütləq devalvasiya olacaq. Çünki Azərbaycanın valyuta ehtiyatları azalacaq, işğaldan azad edilmiş ərazilərin bərpasına xeyli vəsait sərf olunacaq.

Buna görə dövriyyədə pul kütləsi artmalıdır. Bütün bunların fonunda olacağı gözlənilir. Amma indiki pandemiya dövründə bu, problem yarada bilər".

**Aygün Tahirqızı**

# “İnanın, quş olub uçmaq istəyirdim”



## Araz Elsəs:

## “Ürəyimdən keçirdi ki, kaş mən də ordumuzun sırasında olardım”






Vətən müharibəsi günlərində kimlər keçmədi ürəyimizdən, ağlımızdan?!. Yaxında-uzaqda olanlarımızın hamısı. Ürək nə istəyirdi? İstəyirdi ki, qürbətdə olanlarımız bütünlüklə - məhz bütünlüklə, hər kəs burda - Azərbaycanda, yanımızda olsunlar. Biz bir idik, dağlar kimi birbirimizə söykənmişdik.

Onların da cismən deyil, ruhən, fikrən, qəlbən bizimlə çiyin-çiyinə dayandıqlarını hiss edirdik, bilirdik. Bunu Qarabağımıza zəfər yürüşümüzün başladığı ilk günlərdə sevimli Cavanşir Quliyevlə telefon bağlantısında duyduq. Neçə ildir Quzey Kıbrısda yaşayıb çalışan görkəmli bəstəkarımız "ürəyimiz ordadı. Hər gecə, hər səhər qulağımız səsdədi, xəbər gözləyirik..." deyirdi. Neçə-neçə belə soydaşımız var qürbət ellərdə. Bəzisi qardaş diyarlarda, bəzisi... ölkələrin qəlbini qırmayaq, dost diyarlarda, deyək. Amma bilirsiz də səs, avaz sərhəd tanımır, elə quş kimidi. Özü gəlməsə də səsi gəlib çatır. İllərdir Azərbaycan həsrəti çəkən Arazla danışdıq - Elsəs Arazla. "Elsəs"i bilərəkdən addan önə keçirdim. Səsi elin səsinə qarışıb, ondan. Elin dərdini oxuyub əlinə saz alandan. Nə eşq dərdi çəkib, nə məhəbbət. Ancaq ayrılıq dərdi. Qürbət ayrılığı dərdi yox ha, iki sahilin arasındakı tikanlı məftil dərdi! Vətən savaşımızda onu ən çox təsirləndirən, qürurlandıran da Xudafərinin üzərinə üçrəngli bayrağımızın sancılması olub. Sanki Vətən savaşımız məhz buna görə imiş *(həm də buna görə idi - red.)*, Xudafərin ki fəth olundu, işlər tamamdı! Nələr dedi, nələr danışdı Araz Elsəs. Onu deyim ki, səsində qəribə bir həzinlik vardı. Sanki illərlə "Azərbaycan, mənim eşsiz yurdum oy...", "Salam dar ağacı!" hayqıran həmin səs deyildi. Qələbə qazandıq, dar ağacı ilə artıq işi bitdi, nədi?!. Uzaq İsveçdən eşitdiklərimizi oxucularımıza da çatdıraq.

**- Araz bəy, səsinizi eşitmək xoşdur.**

- Mənə də. Hamıya salamlar!

**- 44 günlük Vətən savaşımızı necə izlədiniz? Hansı hissləri keçirdiniz? Hansı hissləri keçirdiyinizi bilirik, amma fərq burasındadı ki, bir var Vətəndə olasan, bir də var Vətəndən kənarda. Bu reallıq yəqin ki, hisslərə də təsir edir.**

- Ürəyimdən keçirdi, nə olardı, mən də ordumuzun sıradan bir əsgəri olardım... İnan, quş olub uçmaq istəyirdim. Ürəyim əsgərlərin ürəyi ilə döyünürdü. Eşq olsun Azərbaycan əsgərinə. Eşq olsun ordumuza! Sentyabrın 27-dən əvvəl kimsə soruşsaydı, heç kimin ağlına gəlməzdi, belə olacağı. İnanılmaz oldu. Buna qədər insanlarda bir əzginlik, ruh düşkünlüyü vardı. 30 il keçirdi işğaldan. Ancaq bu savaş onu göstərdi ki, dövlət, xalq bir olunca, hər şey mümkündür. El bir olunca, əl bir olunca inanılmazlar olur. Uzaqdan-uzağa izləyirdim, xəbərlər alırdım. Görürdüm 30 il sonra millət necə dirçəlir. Dirçəldi və alnındakı qara ləkə silindi. Eşq olsun o igidlərə ki, torpağımızı geri qaytardılar. Bu, böyük uğurdu. Bütün Azərbaycanın uğurudu. Arazın o tayında, bu tayında bütün insanlar sevinirdi. Bizə bu sevinci yaşadan ordumuza minnətdaram. Eşq olsun onlara!

**- Həqiqətən də, Araz bəy, ilimiz çətin başladı, xəstəlik, pandemiya, ağla gəlməzdi ki, bu il belə möhtəşəm, şanlı qələbə ilə sonuclanacaq.**

- Eyni hissləri biz də burda keçirirk.

**- Sosial şəbəkələrdə müxtəlif məlumatlar, videolar paylaşılırdı. İzləyə bilirdinizmi?**

- Sosial mediada çox fəal deyiləm. Amma o kadrları görürdüm. Qürur duyurdum. Yazılanlardan, reaksiyalardan. Sevincimi anlatmaq zor. Mən də paylaşırdım, ürək sözlərimi yazırdım. İnstaqramda dostlarla yazışırdıq. Ürəyimiz bir idi. Bu hadisələr ilin sonuna rast gəldi. Sanki payız deyildi, yaz idi. Fəsil geri dönmüşdü. Pandemiya da, hamısı kölgədə qaldı. Bilirsiz, ekonomik problemlər yarandı, insan tələfatları vardı, hər şey birbirinə dəymişdi. Amma Vətən müharibəsi hər şeyi birdən dəyişdi. Yer yerindən oynadı. Hər şey arxaya, Vətən önə keçdi. Eşq olsun bizim millətə! İgidlərimiz yurda doğru yürüdülər. Bir yumruq olunca, birlik olunca hər şeyin öhdəsindən gəlinir.

**- Vətən savaşımıza mahnı yazmamış olmazsınız, sizi bilirik... Əlinizdə saz var...**

- Var, yeni mahnı. Bu pandemiya bir az... Giley etməyim yaxşı çıxmaz; siz pandemiyaya baxmadan belə böyük qələbə qazandınız. Bu boyda uğur əldə edən bir millət var. Musiqi dünyası, ümumən mənfi təsirləndi pandemiyadan. Amma söz bulağı tükənməz. Coşub daşır. Araz axır, mən də axıram. Hərdən yavaş-yavaş, hərdən dəli-dəli. Qayalara çırpılır, aşıb-daşıram.

**- Yeni mahnı var dediniz... Qələbəmizə aiddi?**

- Bir marş yazmışam. Ordumuza yazılan marşdı. Rok üstündə. Klip də hazırlanır. Ordan da, burdan da görüntüləri üst-üstə qoyub bir şey ortaya çıxarmağa çalışır dostlarımız. Azərbaycanda ola bilsin yaxın vaxtda yayımlanacaq.

**- Araz bəy, döyüşlərdə əsgərlərimizin ifasında gözəl mahnılar səslənirdi. Maraqlıdı, siz əsgərlərlə birgə olsaydınız, hansı mahnıları ifa edərdiniz?**

- Bilmirəm...Ora getsəm, nə olardı, nə oxuyardım?.. Mənim sevgi mahnılarım azdı. Xalq mahnısı oxumuşam "Çoban qızı", bir də Türkiyədə məndən xahiş etdilər "Dağlar qızı reyhan" mahnısını. Türkiyə piyasasında sevilən mahnıdı. Biri də var. Üç dənə. Bunların xaricində mahnılarımın hamısı Vətəndi, torpaqdı. Orda olsaydım, bəlkə bir mahnı yaranardı. Döyüş, səngər başqadı. Əsgərləri görəsən, qanı görəsən, tər qoxusu, barıt qoxusu gələ burnuna... Bir mahnı çıxacaqdı ortaya. Mənə ən çox təsir edən Şuşa döyüşü oldu. Şuşanın o cür alınması çox böyük zəfərdi. O qayalara dırmaşmaq, dişiylə-dırnağıyla döyüşmək... Bu, savaş tarixinə yazıldı artıq. Gəlib o əsgərlərin yanında oturub, onları dinləyəcəm. Bir şeylər ortaya çıxacaq. Bir də Araz qırağında Xudafərində bayraq sancılması. İnanılmaz bir qürurdu. Buna qədər Qarabağ o taylı bu taylı ortaq yaramız idi.




**“Orda olsaydım, bəlkə bir mahnı yaranardı. Döyüş, səngər başqadı. Əsgərləri görəsən, qanı görəsən, tər qoxusu, barıt qoxusu gələ burnuna...”**

Bundan sonra birləşməyimizdi artıq. Güneydə insanlarımız "Qarabağ bizimdi" bağırırdılar. Heç kim də onların qabağını ala bilmədi. Pandemiyada insanları evə qapadırlar, 5 nəfərin bir yerə toplanmasına icazə verilmir, amma o günlərdə minlərlə insan bir yerə toplaşıb "Qarabağ!" qışqırırdı. Qələbədən sonra güneydə möhtəşəm bir durum yaşandı. Göstərdik ki, biz bir millətik. Başa düşsünlər ki, bu milləti ayıra bilməyəcəklər. Millət bir olunca çox böyük zəfərlər qazana bilir. Gün gələcək Araz birləşdirəcək bizi. Bunları sözlə anlada bilməyəcəm. Yaxında bir mahnı olacaq, mütləq.

**- Bakıya nə zaman gəlməyi düşünürsünüz?**

- Planım var, çox istəyirəm gələm. Yaya doğru. Könlüm quşu qanad çalmaz, sənsiz bir an, Azərbaycan!..

**- İsveçdə işiniz nədir, harda çalışırsınız?**

- İndi evdən çalışıram. Bir şirkətim var. Amma əsas işim sazım, sözümdü.

**- Bizlərə sözünüz, əsgərlərə ismarışınız nədi?**

- Burdan üzümü tuturam kiçikdən-böyüyə, hər kəsə. Bu savaşda millət Vətənlə bir bədən oldu, bir can oldu. "Qarabağ" deyib birləşdi. Hər kəs canını, malını ortaya qoydu. Bütün millətin qarşısında baş əyirəm. Bir olaq, gələcəkdə bütün problemləri aşa bilək. Qarşımıza çıxa biləcək problemlərin - kimlərsə düşünür bunları, onların qarşısında duraq. Diplomatiyada da birgə olaq. Daha böyük uğurlar əldə edəcəyimizə inanıram. Birlik önəmlidir. Hacı Bektaşi Vəli demiş, bir olan iri olar, diri olar. Qoymayaq araya ixtilaf düşsün. Hər şey Vətən üçün, hər şey Azərbaycan üçün. Ora gəlincə, oturub söhbət edərik, bir çayınızı içərik...

**- İnşəllah, Araz bəy.**

- Məndən bütün redaksiyanıza salamlarımı çatdırın. Biz birləşməyi bacarırıq.

**Məlahət Rzayeva**

# “Komandirimizin şəhadətə qovuşması əməliyyatlarımızı ləngitdi”

## “Cəsur döyüşçü” medalı ilə təltif olunan qazi “Şərq”ə danışıb

*Vətən müharibəsi Azərbaycan tarixinə zəfər salnaməsi kimi düşdü. Tarixin bu qızıl səhifələrini yazanlar isə, əlbəttə, döyüşçülərimizdir. Biz cəbhədən yeni xəbər gözləyəndə, onlar keçilməz cığırlarla, mürəkkəb dağ yolları ilə irəliləyirdilər. Hansı çətinliklərdən keçdiklərini heç birimiz təsəvvür edə bilmərik. Amma onlara borcumuz var. Vətəndaşlıq, vəfa borcu.*

**44 günlük döyüşlərdə əzmlə, cəsarətlə mübarizə aparanlardan, şücaət nümunəsi göstərənlərdən biri də Elmir Səftərovdur.** O, 1996-cı ilin mart ayının 24-də Şamaxıda anadan olub. Şamaxı rayonu Heydər Hüseynov adına Çarhan kənd orta məktəbində təhsil alıb. 2013-cü ildə BDU-nun Jurnalistika fakültəsini bitirib. 2019-cu ildə isə hərbi xidmətə yollanıb.

**Özünün ”Şərq”ə dediyi kimi, bundan sonra yaşadıqları xatirəsində əbədi iz qoyub:** ”Bölmələrimiz hələ Tovuz hadisələri zamanı Kəlbəcər və Ağdərə istiqamətində düşmənə zərbə vurmaq üçün hazır vəziyyətə gətirilmişdi. Mən AQS-30 atıcısı idim və bu silahdan istifadəni kifayət qədər mənimsəmişdim. Ümumiyyətlə, keçirilən hazırlıqlarda nümunəvi xidmətlə fərqlənmiş, özümü yaxşı tərəfdən göstərmişdim. İş elə gətirdi ki, ilk günlərdən etibarən İkinci Qarabağ müharibəsinin iştirakçısına çevrildim. Taborumuz Kəlbəcər istiqamətində hərəkətə keçdi.

Amma müharibə başladıqdan üç saat sonra komandirimizin şəhadətə qovuşması və ərazinin relyefinin mürəkkəbliyi əməliyyatımızı ləngitdi. Beləliklə, Talış, Suqovuşan istiqamətində hücum əməliyyatına davam etdik. Xeyli şəhid, yaralımız oldu. Lakin heç nə bizi yolumuzdan döndərə bilmədi. Oktyabrın 1-də yüngül dərəcəli travma aldım. Sağalandan sonra yenidən ordu sıralarına qatıldım”.

**Qazimizin sözlərinə görə, düşmən məğlub olmamaq üçün bütün hiylələrdən istifadə edib:**



"Xeyli şəhid, yaralımız oldu. Lakin heç nə bizi yolumuzdan döndərə bilmədi"

”Onu da deyim ki, digər istiqamətlərdəki bölmələrdən fərqli olaraq biz birbaşa, yəni xüsusi təyinatlı qoşunsuz, Bayraqdarsız, Haropsuz hücuma keçirdik. Dediyim kimi, relyef çox çətin idi. Ərazi meşəliklərlə əhatələnmişdi. Yollar və hücuma keçəcəyimiz yerlər isə mina ilə dolu idi. Minaya düşə bilməyəcəyimiz istiqamətlə irəliləyirdik. Lakin bu da ziyanımıza idi. Çünki hiyləgər düşmən bilərəkdən bizi mühasirəyə salmaq istəyirdi. Düzü, bir neçə dəfə bacarmışdılar da. Amma biz də əzmlə irəliləmiş və ermənilərin bir neçə postunu almışdıq. Ən mühüm postları betonlarla əhatələnmişdi. Üstəgəl, bizi kameralarla izləyirdilər. Bu azmış kimi yerə səs dinləmə cihazı da quraşdırmışdılar ki, gəldiyimizi bilib tədbir görsünlər. Hava isə çox dumanlı idi. Hər vəchlə irəliləməyimizə mane olmaq istəyirdilər. Biz belə vəziyyətdə döyüşürdük. Təcrübəmizin az olmasına, ərazini tanımamağımıza rəğmən, cəsarətimiz qələbəyə kifayət etdi. Bir çox döyüş yoldaşlarım kimi, mən də şücaətimə görə ”Cəsur döyüşçü” medalı ilə təltif olundum. Allah zəfərlərimizi bol eləsin!”.

**Kənan Novruzov**



# İqtisadçı investorlara tövsiyə etdi

## “Hər zaman qazandıran və uzun müddət üz güldürən qızıl və zinət əşyalarıdır”

*Azərbaycanda qızıl və gümüş ucuzlaşıb. Yanvarın 14-də qızılın qiyməti yanvarın 13-ü ilə müqayisədə 32,725 manat (1,03 faiz) azalaraq 1 unsiya üçün 3 129,139 manat təşkil edib.*

Gümüş 0,5908 manat (1,36 faiz) ucuzlaşaraq 1 unsiya üçün 42,8737 manata bərabər olub. Bir ayda isə bir unsiya qızıl 8,5425 manat bahalaşıb, gümüş isə 5,4 faiz dəyərlənib.

Son bir il ərzində bir unsiya qızılın 19,6 faiz, gümüşün isə 41,8 faiz bahalaşmasına baxmayaraq hazırda qızıl və gümüş əvvəlki günlərə nisbətən öz dəyərini itirib.

Azərbaycan Mərkəzi Bankından verilən məlumata əsasən dolların manata olan məzənnəsi 1.70 manatdır, yəni, stabil olaraq qalır. Lakin insanlar dolların da qiymətinin dəyişəcəyindən ehtiyat edirlər. Qızılın oynaq qiymətlər üzərində dövr etməsi insanlarda xeyli narahatlığa səbəb olub. Bir tərəfdən də bankların vətəndaşlara dollar satışında məhdudiyyətlər qoyması, xarici valyutaya olan ehtiyacların ödənməsində problemlər yaranması hər kəsi düşündürən məsələlərdəndir. Bu durumda vətəndaşlar əmanətlərini dollar, yoxsa qızıl ilə saxlaması daha yaxşı olar?

**Məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Kazım Məmmədov bu barədə ”Şərq”ə öz fikirlərini bildirib:** ”Müşahidələr göstərir ki, o ölkələrdə ki, daxili və xarici ticarət münasibətlərində dollar üstünlük verilir, orada adətən qızıl və dolların hərəkətliliyi düz mütənasiblik təşkil edir. Yəni qızıl düşərsə, dollarda da qismən düşmələr müşahidə olunur. Təbii ki, bu, xüsusən üzən valyutanın mövcud olduğu, tənzimləmələrin daha az olduğu ölkələr üçün xarakterikdir.

O ki qaldı dolların düşməsi və ya qalxmasına, bu amilə Amerikada mövcud olan siyasi dəyişiklik təsir göstərə bilər. Hesab edirəm ki, post-pandemiya dövründə dolların hərəkətliliyi daha çox ölkələrin milli valyutalarına nisbətdə obyektiv dəyərini göstərməklə xarakterizə olunacaqdır ki, bu da rəqəm baxımından yüksəlmə deməkdir.

Xatırlamaq lazımdır ki, 2020-ci ildə dollar inkişaf etmiş ölkələrdə dəyər itirsə də, inkişaf etməkdə olan ölkələrdə dəyər qazanıb. Əlbəttə ki, buna koronavirus pandemiyası və iqtisadi böhranları da əlavə etsək, dolların əslində ölkələri borclandırma baxımından bir ortaq pul vahidi olduğunu təsdiq etmiş olarıq. Bu da faiz təhdidlərini heç bir zaman istisna etmir”.

**İqtisadçı K.Məmmədov hesab edir ki, investorlar dollara nisbətən qızıla sərmayə qoysalar, onlar üçün daha münasib olar:** ”Qızıl uzun müddətli gəlirlilik göstəricisinə malikdir. Bu baxımdan o, daha çox müstəqil dəyərə malik bir mədəndir.

İnvestorlara tövsiyəm budur ki, hər zaman qazandıran və uzun müddət üz güldürən qızıl və zinət əşyalarına investisiya qoymağa davam etsinlər. Yalnız seçim dollar və qızıl arasında gedirsə, onlar bu seçimi edə bilərlər. Çünki alınan və yatırılan investisiyalar arasında geri qaytarıla bilən və illər keçsə də dəyərini itirməyən yeganə məhsul qızıldır. Qızıl, qeyri-müəyyənlik dövrlərdə dəyər qazanması ilə yanaşı, inkişafda olan ölkələrdə iqtisadi böhranlar və loru dildə desək, pis gündən xilas olmanın qan damarı olub və olacaqdır”.

**Ağarza Elçinoğlu**

# İrandan gətirilən quş ətinə qadağa qoyuldu



## “Ölkəmizə əvvəlcədən bağlanmış müqavilə əsasında gətirilən məhsulları araşdırmaq lazımdır”

*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən başqa ölkələrdən respublikamıza gətirilən məhsullarla bağlı tədbirlər həyata keçirilir.*

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatına əsasən, İranın Cənubi Xorasan əyalətinin ərazisində yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb. Bu baxımdan İranın Cənubi Xorasan əyalətindən bütün növ diri quş və quşçuluq məhsullarının ölkəmizə idxalına müvəqqəti məhdudiyyət tətbiq olunub.

Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə İrandan gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

**Qida təhlükəsizliyi üzrə mütəxəssis Elsevər Fərzəliyev mövcud durumla bağlı ”Şərq”ə danışıb.**

Ekspert mikroorqanizmlərə yoluxmuş və tərkibində müəyyən dəyişikliklər əmələ gəlmiş, toksik maddələrlə zəngin olan qida məhsullarının ölkəyə gətirilməsinə dair məhdudiyyətləri alqışladığını bildirib: ”Bu, AQTA-nın vaxtında atdığı addımdır. Ölkə əhalisinin sağlamlığının qorunması və çoxsaylı qida zəhərlənmələrinin qarşısını almaq üçün atılan vacib addımdır. Məlumdur ki, AQTA ölkəyə gətirilən və çıxarılan, həmçinin ölkəmizdə emal edilən bütün məhsulların təhlükəsizliyinə görə cavabdehdir. Bu, rəsmi olaraq həmin quruma həvalə edilən tapşırıqdır”.

**E.Fərzəliyev söyləyib ki, ölkəmizə hansısa dövlət təşkilatları tərəfindən əvvəlcədən bağlanmış müqavilə əsasında gətirilən məhsulları araşdırmaq lazımdır:** ”Bəzən məhsullar biznesmenlər tərəfindən də gətirilir. Bu zaman həmin şəxsin ölkə əhalisinə göstərmədiyi qayğının şahidi ola bilərik. Ona görə də AQTA-nın bu istiqamətdə gördüyü işləri alqışlayıram. Arzu edirəm ki, bütün məsələlərdə belə operativ və obyektiv olsun”.

**Yeganə Bayramova**

**Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ üçün yeni gündəlik tərtib olunub

## Moskvada imzalanmış 4 maddəlik bəyanat regiona nəfəs gətirəcək

Ayın 11-də Moskvada baş tutan üçtərəfli görüş olduqca ciddi strateji əhəmiyyətə malikdir. Görüş postmüharibə dövründə əldə edilən nəticələrin bir növ hesabatı və bundan sonrakı fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsi idi. 10 noyabr tarixində imzalanmış 9 maddədən ibarət sənəddə əksini tapan strateji prinsiplərin bir daha təsdiq və qəbul edilməsi, regionda sabitlik və təhlükəsizlik məsələlərinin daha da möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım idi.

Görüşdə yeni imzalanmış 4 maddədən ibarət bəyanatı ümumi prosesin davamı kimi qiymətləndirməliyik. Həm yerli, həm də xarici ekspertlər 11 yanvar görüşünü şərh edərkən Azərbaycanın strateji hədəflərinə bir qədər də yaxınlaşdığını vurğulayırlar. Ermənistan Baş naziri Nikol Paşinyan görüşə saysız-hesabsız absurd təkliflərlə gəlsə də, istəklərinin heç biri nəzərə alınmadı. Paşinyan görüşə zorla gəlmişdi, çünki xalq hava limanında qarşısını kəsmişdi. Ümumilikdə, görüşdəki diplomatik jestlər də qalibi məğlubdan açıq-aydın sezməyə imkan verdi. Ermənistan mini kapitulyasiya aktına imza atmağa məcbur qaldı. Həmçinin, 10 noyabr razılaşmasına əsasən, yubanan öhdəliklərlə bağlı ciddi xəbərdarlıqlar aldı. İndiki situasiyada yalnız 1 diktə edən tərəf var, o da Azərbaycandır.

Məlum olduğu kimi üçtərəfli Bəyanatda qeyd olunan əsas məsələlər yol-nəqliyyat infrastrukturunun bərpa edilməsinə aiddir və hazırkı mərhələdə bu, olduqca prioritet məsələdir. Çünki regionun nəqliyyat və iqtisadi əlaqələrinin pozulması və bunu 30 ildən çox davam etməsi regional inteqrasiya və iqtisadi inkişafa çox böyük zərbə idi. Əslində hazırkı tarixi mərhələdə iqtisadi inkişafın gətirəcəyi rifah regionda sülh və sabitliyin də davamlı olması üçün başlıca faktorlardan biridir. Ona görə də bəyanatda növbəti mərhələ üçün konkret icraedici strukturun yaradılması və onun fəaliyyət istiqamətlərinin və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi önümüzdəki mərhələdə regionun nəqliyyat-kommunikasiya infrastrukturunun tezliklə bərpa ediləcəyindən xəbər verir. Əsas məsələlərdən biri isə Azərbaycanı Naxçıvanla birləşdirən dəmiryolu və avtomobil yolunun təmin edilməsidir. Bu, olduqca vacib kommunikasiyadır və təkcə Azərbaycanın deyil, qardaş Türkiyənin, eyni zamanda digər qonşu ölkələrin də iqtisadi maraqlarının realizə olunması baxımından əhəmiyyətlidir. Tarixi layihənin effektiv həlli üçün hər üç ölkənin Baş nazirinin müavinləri səviyyəsində birgə İşçi Qrup da yaradıldı. İşçi Qrupu bu ilin martın 1-nə kimi avtomobil, dəmiryolu xətlərinin açılması və müxtəlif iqtisadi layihələrin icrası ilə bağlı konkret təkliflər hazırlayıb təqdim edəcək. Hamıya məlumdur ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbədən, ərazi bütövlüyümüzü və beynəlxalq səviyyədə tanınan sərhədlərimizi bərpa etdikdən sonra regionda kommunikasiyaların açılmasında, iqtisadi və ticari əlaqələrin bərpa olunmasında ən çox maraqlı olan Azərbaycandır. 30 il blokada vəziyyətində olan Naxçıvanla birbaşa avtomobil və dəmiryolu əlaqəsinin yaranması ilk növbədə muxtar respublikanın inkişafı, gediş-gəlişin asanlaşdırılması, nəqliyyat xərclərinin kifayət qədər azaldılması və bütövlükdə Azərbaycanın anklav bölgəsi ilə bütövləşməsi deməkdir. Həmçinin, Azərbaycanla Naxçıvan arasında iqtisadi və nəqliyyat dəhlizinin işə düşməsi Türkiyə ilə quru əlaqələrimizin yaranmasıdır. Bunun nəticəsində Türkiyənin Azərbaycan üzərindən türk dünyasına asan çıxışı təmin edilir və bu coğrafiya ilə birbaşa bağlantı əldə olunur. Eyni zamanda Azərbaycan İpək Yolu marşrutu üzrə ikinci alternativ dəhliz qazanır. Bu dəhliz yüklərin daşınması baxımından ölkəmizin Gürcüstandan asılılığına son qoyur. Daha qısa yol olduğundan nəqliyyat xərcləri azaldır və beynəlxalq bazarda rəqabət aparmaq imkanımızı xeyli yaxşılaşdırır. Bununla yanaşı, Daqlıq Qarabağın Azərbaycana inteqrasiya prosesini sürətləndirir. Bu məsələdə ölkəmizə qarşı ola biləcək mümkün təzyiqləri neytrallaşdırır və beynəlxalq aləmdə siyasi mövqeyimizi daha da gücləndirir.

Nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Rusiya, Türkiyə ilə yanaşı, Ermənistan dövlətinin və xalqının da maraqlarına cavab verir. Mehri vasitəsilə Türkiyə-Naxçıvan-Azərbaycanın əsas hissəsi, Azərbaycan vasitəsilə Ermənistan-İran və Ermənistan-Rusiya nəqliyyat xətlərinin bərpası adıçəkilən bütün ölkələr üçün faydalıdır. Paşinyan daxili auditoriya üçün görüşdəki nəticələr haqqında ikibaşlı danışsa da, fakt faktlığında qalır ki, Rusiya və Azərbaycan liderləri regionun yeni geosiyasi xəritəsini artıq cızıblar. Elə Prezident İlham Əliyevin üçtərəfli görüşün nəticəsi olaraq birgə Bəyanatda səsləndirdiyi fikirlər də postmüharibə dövründə Ermənistanda və Qərbdəki bəzi revanşist qüvvələr üçün çox vacib ismarış sayılmalıdır: "Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik". Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi nəticəsində Cənubi Qafqaz yeni qonşuluq münasibətlərinə qədəm qoyur.

**Rusiya Siyasi Tədqiqatlar İnstitutunun baş direktoru, tanınmış politoloq Sergey Markov da bildirib ki, regionda yeni kommunikasiya və nəqliyyat əlaqələrinin yaradılmasına, köhnə kommunikasiyanın bərpa olunmasına start verilib. Bu o deməkdir ki, yaxın vaxtlarda Azərbaycanla Naxçıvanı, daha sonra Türkiyəni birləşdirəcək yol inşa olunacaq:** "Hansı ki, bu yol Azərbaycanın iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıracaq. Bundan əlavə, Azərbaycan ərazisindən keçməklə Ermənistanla Rusiyanı əlaqələndirəcək yol inşa olunacaq. Bu isə Ermənistanın Rusiya ilə quru yol əlaqəsində Gürcüstandan asılılığını əhəmiyyətli dərəcədə azaldacaq. Eyni zamanda Bakı və digər şəhərləri Xankəndi ilə əlaqələndirəcək yollar inşa olunacaq. Rəsmi Bakı Dağlıq Qarabağın tamamilə Azərbaycanın tərkibinə qaytarılmasının üçüncü mərhələsinə daxil olur".

**Görüşün nəticələri ilə bağlı "Şərq"ə danışan millət vəkili, politoloq Hikmət Babaoğlu vurğulayıb ki, yanvarın 11-də Moskvada baş tutan ikinci üçtərəfli görüş 10 noyabr Bəyanatında əks olunan maddələrdən sadəcə birinin icrasına həsr edilmişdi.** Deputatın sözlərinə görə, rəhbərlərin müzakirələr fonunda fokuslandığı əsas məqam kommunikasiyaların bərpası idi: "Üçtərəfli Bəyannamə imzalandıqdan sonra Prezident İlham Əliyev bir ifadə işlətdi. Ölkə rəhbəri dedi ki, "Qarabağ münaqişəsi keçmişdə qaldı". İmzalanmış 4 maddəlik anlaşma sənədini məhz bu tezisə söykənərək şərh etmək lazımdır. İndiyə qədər "postmüharibə dövrü" terminini işlədirdik, sülhün uzunmüddətli bərqərar olması mərhələsindən danışırdıq. Cənab Prezident bunu bir addım daha irəli çəkərək ümumiyyətlə münaqişənin keçmişdə qaldığını vurğuladı. Əgər münaqişə artıq başa çatıbsa, növbəti mərhələ quruculuq, inkişaf, tərəfdaşlıq və əməkdaşlıq müstəvisində olmalıdır. Moskva bəyannaməsində "altıtərəfli" yeni əməkdaşlıq və tərəfdaşlıq platformasının yaradılmasının ilkin əsasları qoyuldu. Bu nədən ibarətdir? Zəngəzur nəqliyyat-kommunikasiya dəhlizinin açılması sayəsində Rusiya-Türkiyə, İran-Ermənistan, Rusiya-Ermənistan və Azərbaycan-Türkiyə arasında iqtisadi əlaqələr daha da genişlənəcək. İqtisadi faktor bəzi siyasi məsələlərdən ona görə önə çəkilir ki, kommunikasiyaların bərpası 30 ildir iflic edilmiş regional iqtisadiyyatın dirçəlməsi deməkdir. Bu isə özlüyündə rifah və əməkdaşlığı şərtləndirən birinci amildir. Çünki nəqliyyat və iqtisadi əlaqələr hər bir cəmiyyətə firavan həyat gətirir. Rifah isə öz-özlüyündə sülhə və sabitliyə doğru atılmış uzunmüddətli addıma səbəb olur. Bu baxımdan 4 maddəlik bəyanat kifayət qədər əhəmiyyətlidir. İşçi Qrupu martın 1-nə qədər həyata keçirilməsi vacib olan kommunikasiyalarla bağlı layihələr təqdim edəcək. Beləliklə bölgədə çox sürətli bərpa prosesi gedəcək".

> "Kommunikasiyaların açılması o deməkdir ki, yaxın zamanda bütün məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdacaqlar"

**Politoloq Tofiq Abbasov da "Şərq"ə bildirib ki, Ermənistan baş naziri Nikol Paşinyan hakimiyyətdən getsə belə ölkənin yeni rəhbərləri 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri yerinə yetirməyə məcburdur. Siyasi şərhçinin sözlərinə görə, rəhbərlikdə kimin təmsil olunmasından asılı olmayaraq, Ermənistan dövlət olaraq məsuliyyət daşıyır:** "Düzdür, Ermənistan tərəfi daim çalışacaq ki, məsələləri siyasi yöndə müzakirəyə çıxartsın. Ancaq Moskva görüşünün əsas üstünlüyü ondadır ki, Kremldəki müzakirələr Azərbaycanın qələbəsinin işığında aparıldı. Rəsmi Bakı siyasi aspektləri hələlik arxa plana keçirərək, iqtisadi komponentləri önə çıxarır. Kommunikasiyaların açılması o deməkdir ki, yaxın zamanda bütün məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdacaqlar. Geri dönüş Xankəndi, Xocalı və Xocavəndi də əhatə edəcək. Rusiya və Azərbaycan prezidentlərinin həmahəng mövqeləri, qətiyyətli yanaşmaları nəticəsində yeni gündəlik tərtib olunub. Moskvada "altılıq" əməkdaşlıq platformasının təməl daşı qoyulub. Belə məqamda Yerevan özünü kənarda saxlaya, öhdəliklərindən qaça bilməz. Əslində Ermənistanda ağıllı adamlar yeni mərhələnin onlar üçün daha yaxşı olacağının fərqindədirlər. Kommunikasiya xətlərinin bərpası erməni xalqının iqtisadi vəziyyətini xeyli dirçəldəcək. Ermənistan prosesləri real dəyərləndirməyi bacarmalıdır".

Analitik əlavə edib ki, iqtisadi proseslərlə siyasi hadisələr paralel cərəyan edir: "Bir sahədə böhran yaşanırsa, avtomatik digərinə də sirayət edir. Çünki iki sahə arasında üzvü bağlılıq var. Azərbaycan tərəfi siyasi və hərbi cəhətdən Dağlıq Qarabağ münaqişəsini çözdü. Rəsmi Bakı bu məsələlərə yenidən qayıtmayacağını bildirir. "Status" söhbəti müzakirə mövzusu olmayacaq. Ermənilərin Xankəndi və ətrafında yaşaması problemi də həllini tapmaq üzrədir. Geriyə sadəcə iqtisadi dirçəliş və yeni layihələrin reallaşdırılması qalır. Kommunikasiya və iqtisadiyyatın bərpası bölgə ilə yanaşı bütövlükdə regiona da sülh və sabitlik gətirəcək. Ondan sonra hər hansı mübahisəli məsələ də qalmayacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Şəhərdə parklanma yerləri artırılmalıdır



## Xüsusilə metrostansiyaların qarşısında qayda-qanun yaradılmalıdır

"28 May" metrostansiyasının qarşısında yeni parkomatlar quraşdırılacaq və parklanma yerləri müəyyənləşəcək. Məqsəd ərazidə nəqliyyatın, xüsusilə də ictimai nəqliyyatın rahat hərəkətini təmin etməkdir. Məlumdur ki, təkcə adıçəkilən ərazidə deyil, ümumiyyətlə, paytaxtda avtobus dayanacaqlarının qarşısı, ətrafı həm fərdi, həm də taksi xidməti göstərən avtomobillərlə tutulur.

Avtobuslar dayanacağa daxil ola bilmir, yolun hərəkət hissəsində basırıq yaranır, bu da tıxaclara səbəb olur. Həmçinin, uzun müddətdir köhnə parkomatlar işlək vəziyyətdə deyil. Amma avtomobillərin dayanmasına görə sürücülərdən ödəniş tələb edilir, bilinmir ki, bu ödənişlər hara, hansı ünvana çatır. Belə görünür ki, parkomatların yenilənməsinə başlanır artıq. Qiymətlər barədə isə hələ məlumat yoxdur.

**"Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Şərq"ə açıqlamasında "28 May" metrostansiyası qarşısında yeni parkomatların Azərbaycan Dəmir Yolları QSC tərəfindən quraşdırıldığını dedi:**

- Buna səbəb, birincisi, o ərazidə xaotik vəziyyətin olmasıdır. Təsəvvür edək ki, gün ərzində nə qədər insan dəmir yollarının xidmətindən istifadə edir (pandemiyanı nəzərə almasaq), gedəngələn, yüklər daşınır, qonaqlar gəlir. Ölkəyə gələn birisi vaqondan düşür və vağzal önündə belə bir xaotik vəziyyətlə qarşılaşır. Bu, xoş görüntü deyil. Ona görə də ADY QSC ərazidə yeni parkinqin yaranmasına göstəriş verib. Ərazidə parklanma yeri müəyyənləşəcək və parkomatlar qoyulacaq. Amma qiymət haqqında dəqiq məlumat yoxdur. Bildiyim qədər, qiymət bahadır. Təxminən Hava limanındakı qiymətlər kimidi. Ümumiyyətlə, Bakı şəhərində parklanma qiymətləri hələ də müəyyənləşməyib. Nazirlər Kabineti tərəfindən vahid qiymət müəyyənləşənədək belə şərait davam edəcək. NK tərəfindən tarif müəyyənləşərsə, o zaman hava limanı, dəmir yolu vağzalında da vahid tarifə uyğun qiymətlər olacaq.

**E.Muradlı qeyd etdi ki, paklanma yerlərinin şəhərin digər ərazilərində aranmasına ciddi ehtiyac var:**

- Xüsusilə metro stansiyalarının qarşısında qayda-qanun yaradılmalıdır. Tıxacların əsas səbəblərindən biri parklanma yerlərinin olmamasıdır. Konkret ərazilər müəyyənləşmədiyi üçün maşını kim harda istəyir saxlayır. Yolun hərəkət hissəsini zəbt edirlər. 4 zolaqlı yol 3-ə, 3 zolaqlı 2-yə, 2 də 1-ə enir. Əlbəttə tıxac olacaq. Amma baxırsan ki, parklanma harda olacaq? Metrostansiyaların qarşısında elə basabasdı ki, əl qoymağa yer yoxdur, nəinki maşın saxlamağa. Bunun günahı metrostansiyaların qarşısında, ətrafında obyekt tikintisinə icazə vermiş icra hakimiyyəti başçıları, məmurlardı. Elə basırıqdı ki, metronun çıxışını, girişini güclə tapırsan. Bəzən taksilər, fərdi avtomobillər üçün yer ayrılsa da, yenə də dayanacaqda saxlayırlar. Çünki yer tapmırlar saxlamağa. Bu porblem həllini tapmalıdır ki, avtobus öz yoluyla, taksi də öz yoluyla hərəkət etsin. Sərnşin də, vətəndaş da rahat yolunu getsin.

**Məlahət Rzayeva**

## Ermənilər tamamilə dağıdıblar

Laçında su elektrik stansiyası yenidən qurulur



**Laçındakı kiçik su elektrik stansiyası yenidən qurulur.**

Məlumdur ki, erməni qəsbkarları Azərbaycanın işğaldan azad olunan ərazilərində, əlalxüsus Kəlbəcər, Laçın və digər rayonlarda vaxtilə mövcud olan kiçik su elektrik stansiyalarını darmadağın edərək yararlı avadanlıqlarını söküb aparıblar. Apara bilmədiklərini isə yandırıb və ya partladıblar. Hazırda həmin elektrik stansiyalarından heç biri ümumiyyətlə yararlı vəziyyətdə deyil və tamamilə dağıdılıb. Buna baxmayaraq, artıq "Azərenerji" Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqların yaşıl enerji zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün əməli işə keçib.

**"Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr mərkəzindən "Şərq"ə verilən məlumata görə, neçə müddətdir ki, Laçın rayonu ərazisində yerləşən, 8 meqavat gücündə "Güləbird" Kiçik Su Elektrik Stansiyasında təmir-bərpa işləri aparılır və işlər yekunlaşmaqdadır:** "Döyüşlər zamanı ziyan dəymiş avadanlıqlar - stansiyanın maşın zalları, aqreqatları, generatorları, idarəetmə panelləri, transformatorları yenisi ilə əvəzlənir və ya təmir edilir. Eyni zamanda Həkəri çayından gələn suyu hidroaqreqatlara ötürən və döyüşlər zamanı partlayaraq darmadağın olan boru da yenidən çəkilir. Növbəlilik əsasında aparılan sürətli işlər nəticəsində "Güləbird" Kiçik Su Elektrik Stansiyasının yaxın müddətdə istismara verilməsi planlaşdırılıb. Bunun üçün işə xüsusi briqdalar, podratçı təşkilatlar və mütəxəssislər cəlb edilib.

İlkin olaraq "Güləbird" Kiçik Su Elektrik Stansiyasındakı generatorun 10 kV-luq tərəfindən çıxan gərginlik Laçın və Qubadlıdakı yaxın ərazilərdəki hərbi hissələrə, gələcəkdə isə yüksək gərginlik xətt vasitəsilə Qubadlıda tikiləcək yeni 110 kV-luq yarımstansiyaya ötürüləcək".

**İsmayıl**

## İsmayıllıda itlərin hücumuna məruz qalan 36 yaşlı kişi ölüb



**İsmayıllı rayonunun Kürdmaşı kəndində bədbəxt hadisə baş verib.**

Azərtac-ın bölgə müxbiri xəbər verir ki, 1984-cü il təvəllüdlü Vüqar Zahir oğlu Teyyubov yaşadığı Kürdmaşı kəndində qəflətən küçə itlərinin hücumuna məruz qalıb. İtlər onu dişləyərək ağır xəsarətlər yetirib. Hadisə zamanı qorxu və həyəcan keçirən Vüqar Teyyubovun halı pisləşib. O, hadisə yerindəcə dünyasını dəyişib. Vüqar Teyyubovun ölümündə əsas səbəbin ürək çatışmazlığı olduğu bildirilir. Onun meyiti müayinə üçün Respublika Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin İsmayıllı rayon şöbəsinə aparılıb.

## Göyçayda fəhlə işlədiyi obyektdə yıxılıb

**Göyçayda tikintidə bədbəxt hadisə baş verib.**

Göyçay rayon prokurorluğundan Trend-ə verilən məlumata görə, hadisə yanvarın 13-də saat 11 radələrində baş verib. Göyçay rayon sakini, 1973-cü il təvəllüdlü Əmirov Teyyub Adil oğlunun hündürlükdən yıxılaraq xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub. İlkin araşdırmalarla Göyçay şəhəri, Nizami küçəsində yerləşən qeyri-yaşayış obyektində fəhlə işləyən Teyyub Əmirovun iş zamanı hündürlükdən yıxılaraq müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilib.

# Pandemiyanın mənfi təsiri miqrasiyadan da yan keçmədi

## Ancaq növbəti ildə bu sahədə artım müşahidə olunacaq



Ötən il Azərbaycanda daimi yaşamaq üçün verilən icazələrin sayı 18 faiz aşağı düşüb. 2019-cu ildə 2041 şəxsə icazə verilibsə, bu say 2020-ci ildə 1669 olub. Rəqəmlərə əsasən, icazələrdən 633-ü Gürcüstan, 448-i Rusiya,112-si Türkiyə, 88-i İran, 65-i Türkmənistan, 293-ü digər ölkələrin vətəndaşlarına şamil olunub.

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri, sosial məsələlər üzrə fəlsəfə doktoru Azər Allahverənov məsələ haqqında "Şərq"ə münasibət bildirərkən deyib ki, bunun başlıca səbəbi bütün dünyada tüğyan edən koronavirus pandemiyasıdır: "Ölkədə pandemiyaya qədər olan dövrə nəzər salanda miqrasiya proseslərinin intensiv şəkildə statistik göstəricilər üzrə artmasını görmək olar. Azərbaycanda miqrasiyanın bu və ya digər göstəriciləri üzrə ildən-ilə artımlar müşahidə olunub. Koronavirus infeksiyasının yayılması bir çox sahələrə mənfi təsir göstərdiyi kimi miqrasiya sahəsindən də yan keçməyib. Ötən ilin əvvəlindən başlayaraq sərhədlərdə giriş-çıxışlara müəyyən məhdudiyyətlər tətbiq edilib. Həmçinin ölkə ərazisində qalan əcnəbilərin öz ölkələrinə qayıtması üçün şərait yaradılması burada yaşayan miqrantların sayının azalmasına səbəb olub. Bundan əvvəlki dönəmlərə baxdıqda bir il üçün təsadüf edilən minimum rəqəm 170-180 min təşkil etsə də, pandemiya dövründə ölkə ərazisində qalan əcnəbilərin sayında azalma qeydə alınıb. Ölkədə yaşayan miqrantların buranı tərk etməsi, yeni insanların isə gələ bilməməsi rəqəmlərin müəyyən dərəcədə aşağı düşməsinə gətirib çıxarıb. Miqrasiya sahəsində ümumi statistik göstəricilərə nəzər yetirəndə görmək olur ki, ölkədə yaşamaq istəyən miqrantların sayının yüksək olması bu icazələrin miqdarına təsir edir".

**A.Allahverənov həmçinin qeyd edib ki, növbəti dövrdə bu sahədə artım müşahidə olunacaq:** "Düşünürəm ki, dünyada, həmçinin Azərbaycanda epidemiyanın təsiri nisbətən zəiflədikcə ölkələrarası miqrasiya mübadiləsi üçün yeni imkanlar yarandıqdan sonra bu sahədəki statistik rəqəmlərdə artım hiss olunacaq. Gələcək dövrdə ölkədəki sərhədlərdə giriş-çıxış məhdudiyyətlərinin aradan qaldırılması həmin sahənin inkişafına daha da təkan verəcək".

**Aytac Ali**

# "Nə qədər gec deyil Nizamini Afətdən qorumaq lazımdır"



## Sosial şəbəkə istifadəçiləri Afət Fərmanqızının Nizaminin sözlərinə mahnı oxumasını tənqid edirlər

Müğənni Afət Fərmanqızı Nəsiminin "Sığmazam" qəzəlindən sonra Nizami Gəncəvinin yaradıcılığına da müraciət edib. O, "Şərq"ə açıqlamasında Nizaminin qəzəlinə oxuduğu mahnının yanvar ayının sonunda ictimaiyyətə təqdim olunacağını söyləyib: "Qəzəlin sözləri çox gözəldir. Hamımızın gündəlik işlətdiyimiz sadə ifadələrdir.

Çox qəliz, yaxud da farsca olan qəzəllərdən deyil, öz dilimizdədir. Bir də bu dəfə hind mahnısı ilə oxumamışam. Cənubi Azərbaycan musiqisi ilə sintez etmişəm. Qeyd edim ki, musiqisi Peyman Təbriziyə, sözləri Nizami Gəncəviyə məxsusdur. Ayın 25-dən sonra "YouTube"da olacaq".

Müğənninin bu açıqlaması ictimaiyyətdə müzakirələrə səbəb olub. A.Fərmanqızı yenidən haqlı-haqsız tənqidlərə məruz qalıb. Həm sosial şəbəkə istifadəçiləri, həm də ziyalılar müğənnini "top atəşi"nə tutublar.

Məsələn, tanınmış ədəbi tənqidçi Əsəd Cahangir feysbuk hesabında status yazaraq Afətin açıqlamasına sərt münasibət bildirib: "Doğrudan da bu xanım klassik ədəbiyyatın başına bir bəladır, bir afətdir. Məscid hazır olmamış indidən əsasını dayayıb. Yəni bu xanım bilmir ki, Nəsimi, Nizami, Füzuli onluq deyil? Nizami ilində "xaltura" qəti qadağandır!

Heç bir kanal bunun bayağı, klassikanı təhqir edən mahnısını göstərməsə yaxşıdır. Ayıbdır!".

Ə.Cahangirin paylaşımına yüzlərlə rəy gəlib. Digər şair və yazarlar, eləcə də digər istifadəçilər müğənninin dahi şairin yaradıcılığına üz tutmasına kəskin mövqe sərgiləyiblər.

**Tanınmış yazar Kənan Hacı:**
"Gör dünya nə günə qalıb. Nəsimişünaslar maddi çətinliklər içində çabalayırlar. Böyük zəhmət bahasına illərini sərf etdiyi kitabları nəşr etdirə bilmir".

**Zülfiyyə Eldarqızı:** "Günah səndə deyil ki, sənə şərait yaradanlardadı. Utanmasan oynamağa nə var ki?! Ərdən boşanıb, müğənnilik iddiasına düşənlər o qədər özlərindən razıdılar ki..."

**Günəş Qarabağlı:** "Nə qədər gec deyil, Nizami Gəncəvini Afətdən qorumaq lazımdır. Nizami əsrlər sonra başına gələcəkləri bilsə, heç nə yazmazdı. Məncə, Afət bu dəfə

**"Sən mənim qəlbimə həkim,**
**sənə qul oldu könül,**
**ən əzizsən, mən ucuz,**
**mən heçəm, afət, sənsiz!**
**Nə gözüm var arayım**
**mən səni, bəxtimdə ki yox,**
**Nə də bir qaçmağa var**
**məndə cəsarət sənsiz!"**
qəzəlini oxuyacaq.

**Güloğlan Əbilov:**
"Ümidimiz el qınağınadır. Ədəbiyyatımıza onlarla uşaq-muşaq daraşıb. Musiqimiz də rəhmətlik Tələt Qasımov demiş, "bir dıqqan" səsi olmayan " xalq artist"lərinin belə həyasını-abrını ətəyinə bükənlərin əlində əsir-yesir qalıb, qiymətdən, dəyərdən düşüb. Lazımi səviyyədə də tədbir görməli və bu biabırçılığa son qoymalı, olanların biganəliyini nəzərə alıb özümüz bir xalq kimi ölçü götürməliyik! Ən azından belələrini harda görsək, fitə basıb dəli dərdinə salmalıyıq! Hələlik başqa çarəmiz yox, təəssüf ki!".

**Xəqani Şirməmməd Seyid Əzim Şirvaninin N.Gəncəviyə həsr etdiyi şeiri paylaşıb:**

**Ey Nizami, ey nizamı dağılan,**
**Ey Gəncədə izzü ehtişamı dağılan,**
**Olmuşmu sənlə mən kimi aləmdə**
**Beyti, evi, məktəbi, kəlamı dağılan?**

**Banu Xanım:** "Bunlar televiziya məkanına çıxırlar. Ona görə də bizim sözümüzü eşidən kimdir?!"

**Tanınmış şair Vəli Xramçaylı:**
"Bu nə hikkə, bu nə ədə! Bat a dünya, bat. Oxumaq nədi, hələ də anlamır".

**Samirə Ərəbova**

# "İkinci evim üçün çox darıxmışam"

## Məleykə Əsədova aktyorluq sənətini teatra çevirdi



**Xalq artisti Məleykə Əsədova pandemiya dövrünün ağır şərtlərindən doğan duyğularını, teatra olan həsrətini dilə gətirib.**

"Şərq" qəzeti xəbər verir ki, o, köhnə tamaşalardan fotolarını sosial şəbəkədə paylaşaraq bu sözləri yazıb: "Teatr ikinci evimizdir, doğma məkanımızdır. Teatrda əsrləri fəth edən neçə-neçə insan taleləri yaşayır. Bir insan öz taleyini, razı, narazı yaxud xoşbəxt Allahın bəxş etdiyi ömrü yaşayır. Amma biz aktyorlar neçə-neçə insan taleləri canlandırırıq səhnədə. Buna ürək və dözüm gərəkdir.

Həmin həyatlar bədbəxt, xoşbəxt, ərköyün, xəstə, yaxud da kraliça ola bilir. Nakam məhəbbətə uğramış bir insanı canlandırırıq. Bəli, bu, aktyor həyatıdır. Kənardan asan görünür.

Lakin çox çətindir. Hər dəqiqə ürək və beyinlə işləyən sənətdir. Məsuliyyətli və möhtəşəm işdir. Mükafatı isə tamaşaçı alqışıdır.

Üreyimizi, həyatımızı səhnəyə qurban verdiyimiz aylar, illər ötür. Hər gün efirlərdə olsam da, evdə kitablarla, şeirlərlə vaxt keçirsəm də, ikinci evim üçün çox darıxıram.

31 ildir dövlət teatrındayam, 1 gün belə fasilə vermədən işləmişəm. İlk dəfədir ki, 8-9 aydır səhnəyə çıxmırıq. Bu aylar ərzində boş vaxtım da olmayıb. Müxtəlif janrlarda şeirlər hazırlamışam.

Yenə də obrazlarımız, sənət dostlarımız, səhnə işçiləri, səhnənin qoxusu və tozu üçün darıxmışam. Mən səhnə üçün doğulmuşam".

**Samirə**



# Pərvin Abıyeva: "Heç bir qız kasıb oğlana ərə getmək istəməz"

**Aktrisa Pərvin Abıyeva İnstaqramda canlı yayımda verdiyi açıqlaması ilə müzakirələrə səbəb olub.**

**Sənətçi "Kasıb oğlana ərə gedərsiniz" sualına belə cavab verib:**

"Heç bir qız kasıb oğlana ərə getmək istəməz. Nə qədər sevsə də, getməz. Hansısa oğlan deyirsə kasıbam, günahı onda görürəm. İnsan fərasətli olmalı, tutduğunu qopartmalıdır.

Kasıbam, kasıb ailədə doğulmuşam deyib, kənara çəkilməyin. Kasıbçılıqdan milyonçuluğa qalxan var. İndiki milyonçuların əksəriyyəti əvvəl kasıb olublar".

# Kişi dodağına silikon vurdurub, qaşını niyə alır ki?

## Tacir Şahmalıoğlu kişilərin estetik əməliyyatının əleyhinədir



Müğənni Tacir Şahmalıoğlu ilə həmkarı Vüqar Muradov arasında qalmaqal yaşanıb. T.Şahmalıoğlu "Bazar düzü" verilişinə açıqlamasında bildirib ki, kişilər estetik əməliyyat etdirməz, bu, kişiyə yaraşan addım deyil.

T.Şahmalıoğlunun fikrinə həmin verilişdə qonaq olan müğənni Vüqar Muradov sərt reaksiya verib. O, həmkarının səhv danışdığını söyləyib: "Kişiyə yaraşdırmıram" böyük və ağır sözdür. Mənim burnumda problem vardı, neçə dəfə də əzilmişdi. Ona görə əməliyyat olundum. Bundan əlavə də, 1.92 sm boyum var. Çəkim çox idi, qarnımın piylərini çıxartdırdım. Kim özünü necə rahat və xoşbəxt hiss edirsə, elə etməlidir. Kimisə qınamaq düzgün deyil. İndi də ayaq barmaqlarımda böyümə gedir. Əvvəl 45 sm ölçü ayaqqabı geyinirdim, indi 47 sm olub. Baş barmağım böyüdüyü üçün onu kəsdirəcəyəm".

**Tacir Şahmalıoğlu gənc ifaçının fikirləri haqqında "Şərq"ə danışıb. O, Vüqar Muradovla dostluq əlaqələrinin olduğunu vurğulayıb:** "Lakin üzümə yaxşı, arxada başqa söz danışırsa, özü bilər. O məndə səhv tuta bilməz. Çünki heç vaxt səhv söz demirəm. Kişilərin estetik etdirməsi haqqında düşüncələrimdə də haqlıyam.

Kişi niyə estetik elətdirməldir ki? Kişi dodağına silikon vurdurub, qaşını niyə alır ki? Ona görə dedim ki, kişiyə yaraşdırmıram. Öz fikimi bildirdim. Kiməsə söyləmirəm ki, niyə qaşını aldırıb, estetik əməliyyat etdirirsən? Ad çəkmirəm, sadəcə mənim düşüncəmdir. Onlara pis baxıram. Kiminsə şəxsi həyatına qarışa bilmərəm.

Yalnız həqiqəti səsləndirirəm. Düzdür, zaman elə olub ki, indi həmin adamlara qiymət verirlər. Kişilərə isə az dəyər göstərilir. Əvvəllər belə deyildi. Xülasə, öz fikrimdə qalıram. Düşünürəm ki, estetik əməliyyat kişiyə yaraşmaz. Bəlkə də həmin əməliyyatı etdirənlər mənim haqqımda mənfi danışarlar. Amma, vallah çox pis görünür. Onu da deyim ki, estetik cərrahiyyə əməliyyatı etdirən kişilər tanıyıram. Silikonlular da var ki, məclisdə utandığından danışa bilmir. Bunun da şahidi olmuşam".

**Samirə**

# "Göz yorğunluğu xəstəliyi fasiləsiz işləməkdən qaynaqlanır"



**Aynurə Hacıyeva: "Televizor, kompüter və ən çox ziyanlı olan ağıllı telefonlardan istifadə edərkən diqqətli olmaq lazımdır"**

Zəmanədəndir, həm də işimiz belə tələb edir. İndi hər kəs həm televizor, həm də kompüter qarşısında daha çox vaxt keçirir. Elektron cihazların gündəlik istifadə edildiyi dövrdə onların gözlərimizə vurduqları zərəri bəzən hesablaya bilmirik. Nəticə də həmişə eyni olur, görmənin zəifləməsi və əksər hallarda optik eynək taxmaq zərurəti. Bəs maraqlıdır, görəsən, oftalmoloqlar bu mövzu haqqında nə məsləhət görürlər?

***Suallarımızı "Medika Hospital" klinikasının oftalmoloqu Aynurə Hacıyevaya ünvanladıq:***

**- Son zamanlar uşaqlarda və gənclərdə hansı göz xəstəliklərinə daha çox rast gəlinir?**

- Ən çox rast gəlinən göz xəstəliklərinə refraktiv qüsurlardır. Bu qüsurlar miopiya, hipermetropiya, astiqmatizm kimi 3 əsas qrupa ayrılır. Miopiya (yaxından görmə) zamanı uşaqlar yaxını yaxşı gördükləri halda, uzağı zəif görürlər. Hipermetropiya zamanı yaxını, astiqmatizm zamanı isə həm yaxını, həm də uzağı zəif görmə müşahidə olunur. Uşaqlarda heç bir şikayət olmasa belə, hər il göz müayinəsi aparılmalıdır. Bu məsuliyyət valideynlərin üzərinə düşür.

Gözdə qaşınma, sulanma, göynəmə, ağrı, ikigörmə, çəpgözlük, gözləri qıymaq, televizora yaxından baxmaq, kitabı yaxından oxumaq - bunlar hamısı ilkin əlamətlərdir.

Refraktiv qüsurların vaxtında aşkarlanması çəpgözlük, ambliopiya (tənbəlgözlük) kimi tez-tez rastlaşdığımız ağırlaşmaların qarşısının alınması böyük əhəmiyyət kəsb edir.

**- Neçə yaşdan sonra göz əvvəlki görmə qabiliyyətini itirməyə başlayır?**

- Məlumdur ki, gözümüzün içərisindəki büllur yaşla əlaqədar olaraq öz elastikliyini itirir və tədricən görmə qabiliyyəti azalır. Adətən bu proses 40 yaşdan sonra başlayır və presbiopiya adlanır. Presbiopiya yunanca "yaşlı göz" deməkdir. Bu proses patoloji deyil, fizioloji bir haldır. Əgər 40 yaşdan sonra yaxından işləyərkən tez yorulma, yazıb-oxumanın çətinləşməsi, qaşüstü nahiyədə, alında, hətta başda ağrılar olarsa, mütləq göz həkiminə müraciət etmək lazımdır. Bu zaman göz həkiminin təyin etdiyi eynəklərdən istifadə edərək gözə, xüsusən göz əzələlərinə düşən gərginliyi aradan qaldırmaq mümkündür.

**- Gün ərzində nə qədər telefon, kompüter arxasında vaxt keçirmək məqbuldur?**

- Telefon, kompüter, planşet, qısa desək, qadjet istifadəsinə nə qədər çox məhdudiyyət qoysaq, bir o qədər yaxşıdır. 3, 4 yaşlı uşaqların görmə analizatoru tam inkişaf etmədiyi üçün qadjet istifadəsi məsləhət deyil. 5-10 yaş arası uşaqlar isə 2 saata qədər düzgün və səmərəli istifadə edə bilərlər. Ümumiyyətlə telefon, kompüterdən 4 saatdan artıq istifadə etdikdə, gözdə quruluq əmələ gəlir, həmçinin gözün əzələ sisteminə düşən gərginlik artır və göz yorğunluğu yaranır.

"Biz yaxına baxarkən göz daxilində olan əzələlər artıq işləyərək yaxını görməmizi təmin edir. Bu nə qədər çox və fasiləsiz olarsa, əzələlər bir o qədər çox yorulur. Biz uzağa baxarkən əksinə, yığılmış əzələlər boşalır və istirahət edir"



Bu zaman göz quruluğunun əsas yaranma səbəbi monitora uzun müddət, fasiləsiz baxarkən göz qırpma sayının azalmasıdır. Nəticədə göz yaşı buxarlanır və gözün ön səthi quruyur. Belə ki, qırpma zamanı gözlər təmizlənir və nəmlənir. Gözdə quruluq əlamətləri: gözdə yanma, göynəmə, qızartı, batma-yad cisim hissiyatı olarsa, ekrana bir qayda olaraq baxarkən zaman-zaman gözləri qırpmaq lazımdır. Bu da kömək etməzsə, göz həkiminin təyin etdiyi suni göz yaşı damcılardan istifadə etmək vacibdir.

**- Göz yorğunluğunu aradan qaldırmaq üçün nə etməliyik?**

- Göz yorğunluğu - Astenopiya - gözlərin uzun müddət, fasiləsiz işləməkdən qaynaqlanır. Xüsusən son dövrlər pandemiya ilə əlaqədar evdə daha çox oluruq. Televizor, kompüter və ən çox ziyanı olan ağıllı telefonlardan istifadə edirik. Onu qeyd edim ki, biz yaxına baxarkən göz daxilində olan əzələlər artıq işləyərək yaxını görməmizi təmin edir. Bu nə qədər çox və fasiləsiz olarsa, əzələlər bir o qədər çox yorulur. Biz uzağa baxarkən əksinə, yığılmış əzələlər boşalır və istirahət edir. Bu mexanizmi nəzərə alaraq 20-20 prinsipinə riayət etmək məsləhətdir. Bu prinsipə əsasən 20 dəqiqədən sonra 20 saniyə gözü monitordan ayırmaq, otaq içərisində uzaq məsafədəki əşyaya, yaxud pəncərədən uzağa baxmaq məqsədəuyğundur.

Göz yorğunluğu görmə zəifliyi kəskin nəzərə çarpmayan, kiçik dərəcəli refraktiv qüsuru olan insanlarda daha kəskin özünü büruzə verir (xüsusən hipermetrop və astiqmalarda). Elə buna görə də yaxın məsafədə işləyərkən göz yorğunluğu əlamətləri: gözlərdə sulanma, göynəmə, gözdə, başda olan ağrılar, iki görmə, bulanıq görmə və s. ortaya çıxarsa, həkim-oftalmoloqa müraciət etmək lazımdır. Bu zaman göz həkimin təyin etdiyi kiçik dərəcə belə olsa, eynək istifadəsi mütləqdir.

**- Sağlam görmə qabiliyyətini necə qorumaq olar?**

- Sağlam görmə qabiliyyətini qorumaq üçün ilk növbədə qidalanmaya, yuxu rejiminə diqqət yetirmək, idmanla məşğul olmaq, ən azı ildə 1 dəfə göz həkimi müayinəsindən keçmək lazımdır. Gün ərzində qadjet istifadəsinə məhdudiyyət qoymaq, gün eynəklərindən istifadə etmək (günəşin UB şüalarından qorumaq üçün), zərərli vərdişlərdən - siqaret, alkoqol, bol şəkər, bol nişastalı, fast-foot tipli qidaların istifadəsinə son qoymaq ən önəmli addımlardan biridir.

Qidalanmaya fikir verək dedikdə görmə üçün xeyirli qidalardan söhbət gedir. Bura tərkibində vit A, C, E, Zn, lütein, zeaksantin, beta karotinlərlə zəngin qidalar aiddir. Bu qidaların əsasını yerkökü və suyu, portağal və suyu, balıq, balıq yağı, yumurta sarısı, yaşıl tərəvəzlər, xüsusi ispanaq, brokoli və s. təşkil edir.

Göz həkimi müayinəsi isə bir çox simptomsuz, heç bir şikayət olmadan inkişaf edən, məsələn, qlaukoma (el arasında "qara su" adlanır) kimi ağır göz xəstəliklərinin aşkar olunmasına kömək olur. Uşaqlarda isə zəif görmənin erkən aşkarlanması və vaxtında müdaxilə olunması üçün çox önəmlidir. Belə bir nəticəyə gəlirik ki, çalışdığımız qədər elektron cihazlardan gözlərimizi qoruyaq. Vaxtlı-vaxtında göz həkimi müayinəsindən keçmək məsləhət görülür.

**Zəminə Hüseynova**



## Mənfi qan qrupuna tələbat hər zaman böyük olur

"Mərkəzi Qan Bankı da bu səbəbdən əhaliyə müraciət ünvanlayıb"

**Mərkəzi Qan Bankı vətəndaşlara müraciət edib.**

Qan Bankından verilən xəbərə görə, qan ehtiyacları davamlı olduğundan hazırda 0 (I) Rh- (mənfi 1), A (II) Rh- (mənfi 2) və AB (IV) Rh- (mənfi 4) qan qruplarından olan qan ehtiyatları tamamilə azalıb. Bankın vətəndaşlara müraciətində deyilir: "Qan ehtiyacı olan vətəndaşlarımızı davamlı qanla təmin etmək üçün sənə ehtiyacımız var. Könüllü qan donoru ol və həyat qurtaran dostlarımız arasına qatıl".

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən həkim-nevroloq Qalib Əsədov bildirib ki, ümumiyyətlə, mənfi qan qrupuna tələbat hər zaman böyük olur:** "İnsanların əksəriyyəti müsbət qan qrupuna malik olduğu üçün mənfi qan qrupuna ehtiyac daha çoxdur. Ola bilər ki, Mərkəzi Qan Bankı da bu səbəbdən əhaliyə müraciət ünvanlayıb. Qeyd edim ki, insanlar qan verərkən mütləq şəkildə müayinədən keçirlər. Bu dəfə qan verən şəxslər yalnız spid və hepatitlərdən deyil, o cümlədən də koronavirus infeksiyasından da yoxlanılacaqlar".

**Aynurə**

## Gediş-gəlişin qadağan olunması absurddur

Yanvarın 18-dən sonra yumşalmaya gedilməlidir

**Yanvar ayının 18-i 14 dekabr 2020-ci ildə koronavirus infeksiyasının qarşısının alınması məqsədilə uzadılan xüsusi karantin rejiminin son günüdür.**

Bununla yanaşı, cəmiyyətdə bir sıra məsələlər müzakirə olunur. Görəsən, ayın 18-dən sonra karantin rejiminin yumuşaldılması barədə qərar verilə bilərmi? Hər kəs bu sualın cavabı ilə maraqlanır. Hazırda vətəndaşları SMS icazənin ləğvi və metronun açılması düşündürür.



**Mövcud vəziyyəti "Şərq"ə dəyərləndirən həkim Qalib Əsədov deyib ki, əslində karantin rejimi çoxdan ləğv olunmalı idi:** "Çünki lüzum yoxdur. SMS icazə və rayonlararası gediş-gəlişin qadağan olunması isə absurddur. Dünyanın hansısa ölkəsində belə bir qayda tətbiq olunmur. Həm də sərt karantin rejimi kollektiv immunitetin əmələ gəlməsinə mane olur. Ona görə də əziyyət çəkirik. Bir milyarddan çox əhalisi olan Çindəki yoluxma sayına da baxın, 10 milyonluq Azərbaycana da. Biz Çini keçmişik. Çinin əhalisində kollektiv imunitet yarandı. Orda sərtləşdirmə cəmi iki ay davam elədi, sonra hər yeri açdılar. Fikrimcə, karantin rejimində ciddi yumşaldılmalara gedilməlidir. Bu şəkildə davam edə bilməz".

**Samirə**

# "TikTok" dəyişikliklərə başlayır




## "Tətbiq edilən yeni məhdudiyyətlər müəyyən qurumların "gözündən pərda asmaq" üçündür"

"TikTok" 13-15 yaş arası yeniyetmələrin hesablarını şəxsi (private) edəcək. Şirkətin verdiyi məlumata əsasən belə hesablarda paylaşılan videoları yalnız müəllifin icazə verdiyi istifadəçilər görə biləcək. Bununla yanaşı, "TikTok" bir sıra yeni təhlükəsizlik parametrlərini də istifadəçilərin ixtiyarına verəcək.

Şirkətin məlumatında bildirilir ki, "TikTok" platformada elə bir təhlükəsiz mühit yaratmağa çalışır ki, hətta azyaşlılar da öz videolarını rahat şəkildə paylaşa bilsinlər.

Yeniliklər təkcə 13-15 yaş arası deyil, 16-17 yaşlı istifadəçiləri də əhatə edir. Bundan sonra sonuncuların paylaşdığı videoların şərh bölümünə də məhdudiyyətlər tətbiq olunacaq. Həmçinin bu videolar üçün yüklənmə funksiyasını söndürmək və ya məhdudlaşdırmaq mümkün olacaq.

İnternet-media eksperti Səbuhi Abbasovun "Şərq"ə açıqlamasına görə, yeni təhlükəsizlik parametrləri "TikTok"dakı xoşagəlməz məqamlara ciddi təsir göstərməyəcək: "Ölkəmizdə sosial medianın inkişafı sürətlə gedir. Sosial medianın müsbət tendensiyadan əlavə mənfi tərəflərini də görürük. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycanda sosial şəbəkələrin nümayəndəlikləri olmadığı üçün ölkəmiz müəyyən məhdudiyyətlərin olmasında iştirak edə bilmir. Ya sosial medianın tamamilə bloklanmasını həyata keçirə, ya da istifadəni bütövlükdə azad edə bilərik. Bu da özü ilə bərabər böyük fəsadlar gətirir. Həmin fəsadların ən böyük payı "TikTok"un üzərinə düşür".

S.Abbasov qeyd edib ki, "TikTok" insanların beyninin "yuyulması", dəyərlərin məhv olmasına səbəb olur: "Aparılan araşdırmalar onu göstərir ki, son 3 ildə "TikTok"dan kütləvi şəkildə istifadə edən cəmiyyətlərdə mənəvi cəhətdən ciddi fəsadlar yaranır. Bu fəsadların ən böyük zərəri isə dövlətin üzərinə düşür.

Fikrimcə, "TikTok"un son qəbul etdiyi məhdudiyyətlər sadəcə formal xarakter daşıyır. Həmin məhdudiyyətlər "TikTok"dakı fəsadların çox az hissəsinin qarşısını alacaq.

Çünki oradakı istifadəçilər paylaşdıqları materialların onların gələcək həyatlarına nə qədər təsir edib-etməyəcəyini anlamaq gücündə deyillər. Ona görə də şüurlu və şüursuz şəkildə şəxsi həyatlarına aid materialları müəyyən mental dəyərlərə sığmayan formada paylaşırlar.

Bu amil isə qısa müddətdə onların şəxsi həyatı üçün ciddi problemlər yaradır. Hətta bəzi ölkələrdə intihar və boşanmaların böyük hissəsi "TikTok"un üzərinə düşür".

Ekspertin sözlərinə görə, "TikTok" platforması texniki olaraq prosesi elə qurub ki, ancaq bayağı, mental dəyərlərə sığmayan görüntülər paylaşmaqla qısa zamanda məşhurlaşsın və biznes gəlirləri daha da artsın: "Tətbiq edilən yeni məhdudiyyətlər müəyyən qurumların "gözündən pərdə asmaq" üçündür".

**Yeganə Bayramova**

# Həm ucuz, həm də sərfəli...

## Qənaətcil avtomobillər artıq Azərbaycan bazarına daxil olub

Avtomobillərin atmosferə buraxdığı zəhərli maddələr ekologiyanı korlamaqla yanaşı insan sağlamlığı üçün də ciddi təhlükə hesab olunur. Belə ki, bu tip maddələr insan orqanizmində bir çox xəstəliklərin ortaya çıxmasına zəmin yaradır.



Bu səbəbdən Avropa ölkələri, Yaponiya, ABŞ və digər dövlətlər atmosferə zərər verməyən elektromobil və hibrid avtomobillərin istehsalını həyata keçirməyi qərara alıb. Təqribən 20 il bundan əvvəl ilk olaraq Yaponiya şirkəti hibrid avtomobillərin istehsalına başlayıb. Hazırda isə dünyanın bütün məşhur avtomobil markaları elektromobil və hibrid avtomobillərin istehsalına geniş yer ayırır. Bəs Azərbaycanda atmosferə zərər verməyən bu tip avtomobillərin istifadəsi mümkündürmü? Bu avtomobillərin gələcəkdə təmiri üçün ümumiyyətlə, texniki heyət ölkəmizdə lazımi səviyyədədirmi?

**Sualımızı cavablandıran ekstremal sürücülük üzrə mütəxəssis Ruslan Musayev "Şərq"ə açıqlamasında bildirib ki, hazırda ölkə avtomobil bazarında rəsmi dilerlər tərəfindən hibridlər və elektromobillər də satılır.** Ekspert hesab edir ki, artıq həm alıcılar, həm də satıcılar "yaşıl" avtomobillərə keçidə hazırdırlar: "İş yalnız ekoloji cəhətdən təmiz avtomobillərin satışını stimullaşdırmadadır - gömrük rüsumları və subsidiyalarda. Qeyd edim ki, elektromobillərin kütləvi tətbiqi və istismarı şəhərimizin ekologiyasını bir qədər yaxşılaşdıra bilər. Hibridlər də məqsədəuyğundur. Amma elektromobillər daha yaxşıdır. Hibridlər daxili yanma mühərrikləri ilə işləyir. Bu səbəbdən, az da olsa, zərərli tullantıları var. Amma elektromobillər sırf ekoloji avtomobillər sayılır. Özüm bu cür maşınlardan "Hyundai İoniq"i test etmişəm. Bu maşın tam elektrik mühərriki ilə təmin olunub. Belə maşınlar daxili yanma mühərriki olan avtomobillərdən daha ucuz başa gəlir. Test etdiyim müddətdə maşın hər 200 km-ə 10 manatadək qənaət etməyə imkan verirdi. İl ərzində onu getdiyimiz yola vursaq, nəticədə böyük məbləğə qənaət etmiş olduğumuzu görərik".

**"Artıq həm alıcılar, həm də satıcılar "yaşıl" avtomobillərə keçidə hazırdırlar"**

**"Hibridlər daxili yanma mühərrikləri ilə işləyir, ona görə elektromobillər daha münasibdir"**

**R.Musayev bu avtomobillərin texniki heyət məsələsinə də toxunub:** "Rəsmi nümayəndəlikdə lazımi texniki hazırlıq olmasa, bu zaman istehsalçı hibrid və elektrokarları nümayəndəliyə satışa verməz. İstehsalçı texniki hazırlıq keçmiş personal olmadan heç bir modelin satışına icazə vermir. Üstəlik, mütləq olan ehtiyat hissələri də satıcının anbarında olmalıdır".

**Aynurə Pənahqızı**



# Stressdən uzaq durun!

## Mədə-bağırsaq sisteminin pozulması da üzdə səpkilər yaradır

**Gözəllik həmişə göz oxşayır. Amma zaman keçdikcə, yaş üstünə yaş gəldikcə gözəllik də yavaş-yavaş solmağa başlayır.**

Necə deyərlər, qara saça dən, bəyaz dəriyə qırış düşür. Lakin cavanlığın da öz problemləri var. Məsələn, üz səpkiləri. Təbii ki, üzdə səpkilərin yaranması gözəlliyə xələl gətirməklə yanaşı xanımlarda narahatlıq da yaradır. Bu baxımdan səpkilərin yaranma səbəblərini və ondan xilas olmağın yollarını öyrənmək heç də pis olmazdı.

**Həkim-kosmetoloq Xatirə Namazova üz səpkilərinin yaranma səbəbləri ilə bağlı "Şərq"ə danışıb.**

Kosmetoloq qeyd edib ki, xırda səpkilərin əmələ gəlməsi bir sıra səbəblərlə əlaqədar ola bilər: "Mədə-bağırsaq sisteminin pozulması, qəbizlik, bağırsaqların atoniyası səpkilər yaradır. Həmçinin allergiya, mövsümlə əlaqədar olaraq çiçək tozu, günəş şüaları, toz və digər yaz-payız faktorlarına qarşı həssaslığın artması da səpkilərə səbəb olur".

Həkimin sözlərinə görə, üzdəki səpkilərin əmələ gəlməsində digər faktor dəriyə qeyri-düzgün qulluqdur:

"Kosmetik vasitələrin uzun müddət üzdə qalması, dərinin təmiz yuyulmaması, yeni istifadə olunan hər hansı vasitəyə qarşı reaksiyalar dərinin altında və üstündə səpkilər yaradır. Orqanizmdə baş verən hormonal dəyişikliklər, məsələn, yeniyetməlik, hamiləlik, klimaks da vacib amillər sırasındadır. Bəzi dərman preparatlarının qəbulu, eyni zamanda güclü stress səpkilərə yol açır".

**X.Namazova üzdəki səpki problemlərinin aradan qaldırılması üçün mühüm məqamlara toxunub:** "Üzün isti suyla yuyulması ilk növbədə iltihabi proseslərin sorulmasını sürətləndirir, çünki demodeks kimi parazitlər isti mühitə qarşı dözümsüzdür. Axşamlar üz yuyulduqdan sonra tərkibində spirt saxlayan losyon, salisil spirti və ya 40 faizli spirtlə silinməsi səpkilərin azalmasına təsir edir.

Müalicə zamanı qida rasionundan şirin, duzlu, yağlı qidalar tamamilə çıxarılmalıdır. Meyvə-tərəvəz, göyərti kimi təbii məhsulların qəbulunu artırmaq lazımdır. Mütəmadi olaraq təmiz havada gəzmək, müalicə müddətində dekorativ kosmetikadan istifadə etməmək, skrab kimi dərini zədələyə biləcək vasitələrdən uzaq durmaq məsləhət görülür".

**Yeganə Bayramova**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 84



## Qeyri-adi ideya ...

### Heç yerdə işləmədən günə 410 manat qazanır

**Yaponiyada yaşayan 35 yaşlı kişi hər hansı işlə məşğul olmadan günə təxminən 410 manat qazanır. Milli.Az haberler-ə istinadla xəbər verir ki, Yaponiyada yaşayan 35 yaşlı Shoji Morimoto pandemiya dövründə heç nədən pul qazanır.**

Onun gördüyü iş ürəyi sıxılan, söhbət etməyə ehtiyacı olan şəxslərlə vaxt keçirib, sadəcə onları dinləməkdən ibarətdir. Üstəlik, onu icarələyən şəxslər nəqliyyat xərclərini də qarşılayır, yeməyi də alırlar.

O, gün ərzində 3,4 nəfərlə görüşüb, söhbət edir, onlarla alış-verişə, ya da gəzməyə çıxır.

*Qeyd edək ki, fizika fakütləsinin məzunu olan Şoji evlidir və 4 yaşlı uşağı var.*

## Dünyanın ən qədim divar rəsmi aşkarlandı



**Avstraliya arxeoloqları dünyanın ən qədim mağara rəsmini kəşf ediblər.**

Unikal.org bildirir ki, ən azı 45.500 il əvvəl çəkildiyi düşünülən çöl donuzu təsviri İndoneziyanın Sulavesi adasındakı Leang Tedongnge mağarasında tapılıb. Tünd qırmızı xardal piqmentindən istifadə edilərək çəkilmiş rəsm, bölgədəki insanların məskunlaşmasının ən qədim dəlili sayılır.

## Yarasalardan insanlara keçib

### COVID-19-un mənşəyi məlum oldu



**Kambric Universiteti və Pirbrayt İnstitutunun (The Pirbright İnstitute) bir qrup əməkdaşı SARS-CoV-2 virusunu insan üçün təhlükəli hala gətirən əsas dəyişikliklərini üzə çıxarıblar.**

Deyerler.org bildirir ki, "PLOS Biology" jurnalında dərc olunmuş tədqiqata əsasən, bu virusun yarasalardan insanlara keçməsinə səbəb olan genetik dəyişikliklər 2003-cü ildə atipik sətəlcəmin yayılmasına gətirib çıxaran dəyişikliklərlə eynidir. Mütəxəssislərin rəyincə, buradan hasil olan nəticə sözügedən viruslar ailəsinin heyvanlardan insanlara yoluxmaq üçün keçirdiyi mutasiyaların vahid bir mexanizmə söykənməsidir. Burada başlıca amilin virusdakı S zülalının tarixən dəyişikliklərə uğraması olduğu ehtimal edilir.

## Məşhur cütlük evlənirlər

### Onlar ailələr arasında kiçik mərasimlə üzük taxaraq nişanlanıblar



**Aktrisa Rojda Demirer bir müddət əvvəl eşq yaşamağa başladığı Ulaş Kıyakla evlilik yolunda ilk addımı atıb.**

Türk mətbuatı bildirir ki, məşhur cütlük ailələr arasında kiçik mərasimlə üzük taxaraq nişanlanıblar. Onlar pandemiyadan sonra nikah masasına oturmaq üçün hazırlıqlara başlayıblar.

*Qeyd edək ki, Rojda Demirer hazırda yeni ekranlara gələn "Maraşlı" serialında əsas rollardan birini canlandırır.*



# Ərdoğan koronavirusa qarşı peyvənd olundu

### Türkiyə Prezidenti özünü yaxşı hiss etdiyini söyləyib





**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı "Sinovac" vaksini ilə peyvənd olunub.**

Dövlət başçısı Ankara Şəhər Xəstəxanasında "Sinovac" vaksini vurdurub. Müəyyən edilmiş qaydaya əsasən ikinci doza 28 gün sonra vurulmalıdır.

Qeyd edək ki, Türkiyədə "Sinovac" vaksini ilə kütləvi peyvəndləməyə yanvarın 13-də start verilib.

Yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı "Sinovac" vaksini ilə peyvənd olunan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan özünü yaxşı hiss etdiyini söyləyib.

Dövlət başçısı Ankara Şəhər Xəstəxanasında "Sinovac" vaksini vurdurandan sonra mətbuat qarşısına çıxıb.

Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, qısa zamanda bütün Türkiyə vətəndaşlarının peyvənd olunması hədəflənir. Yaxın günlərdə daha 25-30 milyon vaksin gətirilməsi planlaşdırılır.

## Qızın iki adaxlısı var

### Mersində inanılmaz hadisə yaşanıb




**Mersində evlənmə vədi ilə 2 nəfəri eyni gündə və eyni saatda "nişan" mərasimi üçün evə dəvət ediblər.**

Belə ki, E.T hər iki ailəni Mersində yaşayan Y.S adlı xanımla tanış edib. Fərqli tarixlərdə qızla görüşən bəy namizədləri evlənmək qərarına gəliblər. "Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, ayrı vaxtlarda Mersinə gələrək qızı atasından istəyən ailələr söz kəsdikdən sonra 60 bin TL verərək öz məmləkətlərinə dönüblər. Lakin sonradan qapıya gələn bəy namizədləri və onların ailələri aldadıldıqlarını görüncə həyatlarının şokunu yaşayıblar. Əvvəlcə mübahisə edən, daha sonra dalaşan ailələrə polis müdaxilə edib. Polis bölməsinə aparılan tərəflər orda dolandırıldıqlarını anlayıblar. Polislər gəlin namizədi Y.S, anası H.S. və digər qardaşı M.S. və qurban ailələrinə vasitəçilik edən E.T.-ni tutmaq üçün dərhal istintaq tədbirlərinə başlayıb. Gəlin namizədinin və onun valideynləri zərgərdə zinət əşyalarını yoxlatdırarkən təhlükəsizlik kameralarına düşüblər. Hazırda onların tutulması istiqamətində işlər görülür.

**Aynurə**



## Hind gözəlini tanımaqda çətinlik çəkdilər

**2000-ci ildə Dünya gözəllik yarışmasının qalibi və hind aktrisası Priyanka Çopra sosial şəbəkədə arxiv fotosunu paylaşıb.**

Axşam.az xəbər verir ki, 17 yaşında çəkdirdiyi şəklini İnstaqram hesabında izləyiciləri ilə bölüşən aktrisanı tanımaq mümkün olmayıb.

Priyankanın bəzi pərəstişkarları onun yeniyetməlik dövründə eybəcər olduğunu, tanıya bilmədiklərini, bəziləri isə "estetik gözəli" olduğunu yazıblar.